

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

05 may 2026-cı il, çərşənbə axşamı
№ 077 (7144)
Qiymətı 60 qəpik


## Beş il ərzində 14 qətnamə aludəçilikdir




Bax səh. 3

## İlham Əliyev: Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü qədər eyni dəyərə malikdir. Bu məsələdə ikili standartlar qəbuledilməzdir

# Azərbaycan-İtaliya dostluq əlaqələrinin inkişafına növbəti töhfə



Bax səh. 2

## Qərb siyasətçilərinin "korluğu", yaxud binoklla seyr edilən mənzərə...

Bax səh. 3




Bax səh. 4-5

### Heydər Əliyev irsi: şanlı Zəfərdən parlaq gələcəyə



Bax səh. 5

### Maliyyə Nazirliyində YAP-a yeni qəbul olunan əməkdaşlara üzvlük vəsiqələri təqdim edilib



Bax səh. 6

### Böyük Qayıdış: Heydər Əliyev ideyalarının təntənəsi

## 14 təklifə qarşı "Azadlıq layihəsi"...



Bax səh. 7

# Azərbaycan-İtaliya dostluq əlaqələrinin inkişafına növbəti töhfə



**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə təkbətək görüşü keçirilib.**



## Azərbaycan körpü rolunu oynayır

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə geniş tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

-Xanım Baş nazir, nümayəndə heyətinin üzvləri, bir daha xoş gəlmisiniz. Bizim müxtəlif aspektlər üzrə mükəmməl danışıqlarımız oldu. İndi danışıqlarımızı geniş tərkibdə davam etdirəcəyik. Əvvəlcə bizimlə bir yerdə olduğunuz üçün Sizə bir daha təşəkkür edirəm. Bu səhər, hətta dünəndən bəri necə məşğul olduğunuzu bilirəm. Ermənistandan gələrək bizi ziyarət etməyiniz çox rəmzi məna daşıyır. Bu, bir daha Azərbaycana dost münasibətin olduğunu göstərir. Bizim də İtaliyaya eyni münasibətimiz var. Sizin bugünkü səfəriniz strateji münasibətlərimizin inkişafında çox həlledici olacaq. Bir daha xoş gəlmisiniz.

İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni çıxış edərək dedi:

-Çox sağ olun, hörmətli Prezident. Burada olmaq mənim üçün şərəfdir və məndə məmnunluq hissi doğurur. Hesab edirəm ki, buraya gəlmək vacib idi, çünki Azərbaycan İtaliya üçün çox vacib tərəfdaşdır. Lakin buna baxmayaraq, mənə məlum oldu ki, 2013-cü ildən bəri İtaliyanın Baş naziri buraya səfər etməyib. Bu da mənə kifayət qədər qəribə görünür. Ona görə hesab edirəm ki, bu səfəri etmək həqiqətən vacib idi, çünki bizim əməkdaşlığımız həqiqətən də çox genişdir. Biz bir çox strateji sahələr üzrə əməkdaşlıq edirik, - əlbəttə ki, enerji, infrastruktur, bağlantı və mədəniyyət.

İtaliya Respublikası Prezidentinin Azərbaycana səfəri həm də bizim mədəni əlaqələrimizin və universitetlə bağlı aparılmış işin nümayiş etdirilməsi nöqteyi-nəzərindən əlamətdar bir hadisə idi. Lakin hesab edirəm ki, biz həmişə birlikdə daha çox iş görə bilərik. Fikrimizcə, Azərbaycan bizim beynəlxalq müstəvidə çətin vəziyyətdə olmağımıza baxmayaraq, strateji tərəfdaşımızdır. Eyni zamanda, Azərbaycan körpü rolunu oynayır. Biz bu körpünün rolunu elan etmək istəyirik. Bu körpü buradan Aralıq dənizi regionuna qədər çox uzun bir körpü ola bilər.



## İlham Əliyev: Hərbi-texniki əməkdaşlıq ümidvericidir

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli xanım Baş nazir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, xanım Baş nazir, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Əminəm ki, Sizin səfəriniz Azərbaycan-İtaliya dostluq əlaqələrinin inkişafına növbəti töhfə olacaqdır.

Bizim ölkələrimiz strateji tərəfdaşdırlar, 2014-cü və 2020-ci illərdə strateji tərəfdaşlığa dair iki bəyannamə imzalanmışdır. Bizim münasibətlərimizin əsasını təşkil edən bu iki sənəd və sənədlərdə təsbit edilmiş məsələlər bu gün həyatda da öz əksini tapır. Sizin bu gün Azərbaycanda olmağınız bir daha Azərbaycan-İtaliya əlaqələrinin nə qədər dərinməzmunlu olmasından xəbər verir. Hər kəs bilir ki, Siz bu gün Ermənistanda idiniz. Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda, Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür.

Bildiyiniz kimi, bizim siyasi əlaqələrimiz ən yüksək səviyyədədir. Eyni zamanda, ticarət əlaqələrimiz də çox yaxşı vəziyyətdədir. İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır. Keçən il bizim ticarət dövriyyəmiz təxminən 12 milyard dollar təşkil etmişdir. Təbii ki, əlaqələrimizin əsas istiqamətlərindən biri energetika sahəsində tərəfdaşlıqdır. Burada da biz uzun illər ərzində etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləyirik. Azərbaycan İtaliyanın neft təchizatında ikinci yerdədir, qaz təchizatında da ikinci yerdədir. Bizim üçün İtaliya bazarı həm neft, həm qaz üzrə birinci dərəcəli əhəmiyyət daşıyır. Keçən il Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib, onun 9,5 milyardı İtaliya bazarına ixrac olunmuşdur. Bu gün söhbətlər və danışıqlar əsnasında biz bu həcmi artırmaq üçün müzakirələr aparmışıq. Bunun üçün təbii ki, Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP layihəsinin genişləndirilməsi lazımdır. Artıq müəyyən dərəcədə genişləndirilib, amma bu proses davam etdirilməlidir.

Bizim yeni əməkdaşlıq sahəmiz olan hərbi-texniki əməkdaşlıq ümidvericidir. Bu gün bu barədə də danışıldı. Birgə layihələrin həyata keçirilməsi, birgə istehsalın təşkil edilməsi, İtaliya texnologiyalarının Azərbaycan maliyyə vəsaitinin birləşməsi ilə əlaqədar konkret fikirlərimiz var. Bu barədə də geniş danışılıb.

İtaliya bazarı bizim üçün çox maraqlıdır. İtaliya iqtisadiyyatı xanım Baş nazirin rəhbərliyi ilə uğurla inkişaf edir. Azərbaycan Dövlət Neft Fondu son bir neçə il ərzində İtaliya iqtisadiyyatına təxminən 3 milyard dollar sərmayə qoyub. Bu sərmayələrin yeni layihələrə cəlb edilməsi məsələləri də müzakirə olunmuşdur.

Əlbəttə ki, İtaliya şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətinin çox böyük tarixi var. Hazırda İtaliyanın 130-a yaxın şirkəti Azərbaycanda fəaliyyət göstərir. İstəyirəm ki, onların sayı daha da çox olsun. O cümlədən işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda İtaliya şirkətləri 23 layihə həyata keçirib və həyata keçirir. Xarici ölkələrin şirkətlərinə baxdıqda bu layihələrin icrasında İtaliya yenə qabaqcıl yerlərdədir.



Təbii ki, bütün bu biznes, kommersiya, ticarət əlaqələri, şirkətlərin birgə fəaliyyəti və digər məsələlərlə yanaşı, biz bəlkə də ən vacib sahəni də unutmamışıq, o da təhsil sahəsidir. Keçən il Bakıda böyük təntənə ilə İtaliya-Azərbaycan Universiteti açılmışdır. Azərbaycanda təhsilin inkişafına bu universitetin çox böyük təsiri və töhfəsi olacaq. Bizə verilən məlumata görə, artıq 500-dən çox tələbə orada təhsil alır və gələcəkdə onlar həm peşəkar mütəxəssislər, həm də ki, Azərbaycanın İtaliyada və İtaliyanın Azərbaycanda təbii elçiləri olacaqlar. Beləliklə, bizim dostluğumuz bundan sonra inamla davam etdiriləcəkdir.

Hörmətli xanım Baş nazir və nümayəndə heyətinin üzvləri, sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz.

## Ciorcia Meloni: Gələcəyə aid prioritetləri birgə təyin edəcəyik

Sonra İtaliya Nazirlər Şurasının sədri bəyanatla çıxış etdi.

### Nazirlər Şurasının sədri Ciorcia Meloninin bəyanatı

- Çox sağ olun, cənab Prezident.

Hamınıza "Axşamınız xeyir olsun" deyirəm.

Bu gün burada - Bakıda olmaqdan çox məmnunam. Təbii ki, bir daha cənab Prezident Əliyevə və bütün hökumətə bizə göstərilmiş çox səmimi qəbula, həmçinin bu gün ərzində apardığımız çox məhsuldar dialoqa görə təşəkkürümü bildirmək istəyirəm.

Bu gün ölkələrimiz arasında münasibətlərə gəldikdə, bu, siyasi baxımdan mənim üçün əhəmiyyətlidir. Çünki İtaliyanın Baş nazirinin Azərbaycana rəsmi səfərindən 13 il ötür. Düşünürəm ki, yaranmış bu qədər uzunmüddətli boşluğu doldurmalı idik. Bu, özünü nəinki ölkələrimizi bir-birinə bağlayan dostluq münasibətlərində, həmçinin İtaliya və Azərbaycan arasında çox mühüm əməkdaşlıqda göstərir. Bununla belə əlaqələrdə keyfiyyətcə böyük sıçrayış olub. Beləliklə, təbii ki, apardığımız çox geniş söhbətə görə təşəkkür edirəm. Söhbətimiz əsasında daimi siyasi əlaqələndirmə yolu ilə əməkdaşlığımızı transformasiya etmək üzərində razılığa gəldik. Buradan gələcəyə aid prioritetləri birgə təyin edəcəyik. Düşünürəm ki, indi yaşadığımız mürəkkəb beynəlxalq müstəvidə bu, çox əhəmiyyətli seçimdir. Bununla belə, ətrafımızda olan qeyri-sabitlik artır və aramızdakı aydın məsələlərin həlli daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Həmin aydın olan məsələlərdən biri təbii ki, İtaliya ilə Azərbaycan arasındakı münasibətlərdir.

Birmənalı olaraq, əməkdaşlığımızı hər zaman səciyyələndirən sahələrdən biri enerji sahəsidir. İtaliyaya qaz və neftin ixracı Ukraynaya qarşı Rusiyanın təcavüzkar müharibəsi başladıqdan sonra şərəflə təmsil etdiyim ölkənin enerji təhlükəsizliyində müəyyənedici amil rolunu oynayır. Bu əlaqələrin möhkəmləndirilməsi barədə aydın şəkildə söhbət apardıq. Biz nəinki təchizat həcmləri, xüsusilə bütün sahələr üzrə sənaye tərəfdaşlığının keyfiyyəti üzərində çalışmalıyıq. Bilirik ki, enerji və bağlantılar eyni medalın iki üzüdür. İstərdik ki, Azərbaycan Avropa ilə Asiya arasında fundamental qovşaq rolunu möhkəmləndirsin. İtaliya bu baxımdan Avropa bazarına imtiyazlı giriş qapısı rolunu hər zaman oynamağa hazırdır. Aydındır ki, bu cür plan sərmayələri, uzunmüddətli proqramları, ölkələrimizdə istehsal və sənaye sistemlərimizin ən münasib imkanlarının bir araya gətirilməsini tələb edir. Bu səbəbdən biz 2026-cı ilin ikinci yarısında burada, Bakıda biznes-forum təşkil etməyi planlaşdırmışıq ki, siyasi əməkdaşlığımızı müəssisələrimiz, işçilərimiz üçün konkret fürsətlərə çevirək.

Mən Prezidentlə razıyam ki, bütün bunlar istər son illərdə gözəçarpan Azərbaycan sərmayələrinin İtaliyaya yatırılmasında, istərsə də Azərbaycan tərəfi üçün İtaliyanın genişmiqyaslı sərmayələrinin ayrılmasında görünür. Cənab Prezident, söhbətlərimizdə qeyd etdiyimiz kimi, təsdiqləyə bilərəm ki, strateji planların, inkişaf planlarının, 360 dərəcəlik müasirləşmədə nəinki ikitərəfli qaydada, o cümlədən üçüncü ölkələrdə birgə işin icrasında çox böyük marağı olan çoxsaylı İtaliya müəssisələri var. Çünki energetika əməkdaşlığımızın yeganə sahəsi deyil. Bir çox digər sahələr var.

Həlledici digər sahə müdafiə və təhlükəsizlik sahəsidir. Bu sahədə, aerokosmik sənaye, dəniz təhlükəsizliyi, mühüm infrastrukturun mühafizəsi, üstün texnologiyalar kimi sahələrdə İtaliyanın ən kamil nəticələrini dəyərləndirərək əməkdaşlığı dərinləşdirmək istəyirik. Biz elə bir model təklif edirik ki, sənaye sistemləri arasında əməkdaşlıq nəticəsində biliklərlə mübadilə, birgə inkişaf, regional sabitliyə töhfə verə biləcək gələcək perspektivli sahələr və nəhayət, sənaye sistemlərimizi birləşdirən amillər olsun.

Bununla belə, dostluğumuz münasibətlərimizdə, cəmiyyətlərimiz arasında əlaqələrdə, mədəni bağlantılarda dərin köklər salıb. Burada, Bakıda respublika Prezidenti Mattarellanın iştirakı ilə Azərbaycan Diplomatik Akademiyasının nəzdində açılmış universitet İtaliyanın beş nüfuzlu universiteti ilə əməkdaşlıqdan formalaşmışdır. Yekun nəticədə bütün bunlar mədəniyyət, gələcək nəsillər, xalqlarımız arasında əlaqələr, bu gün həm mədəniyyət, həm ərzaq təhlükəsizliyi sahələrində əldə etdiyimiz razılaşmalar ümumi məramımızın rəmzi anlarıdır. Bütün bunlar eyni istiqamətdə inkişaf edir.

Təbii ki, Prezident Əliyevlə İranla bağlı böhrandan tutmuş bölgəmizdə baş verən və hamımıza aid olan hadisələrə qədər əsas beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi apardıq. Aydın şəkildə, mənim üçün İranla ümumi sərhədi olan, İranla uzun ümumi tarixə malik ölkənin Prezidentinin fikrini dinləmək çox maraqlı oldu. Bir daha arzu edirik ki, bu böhran mümkün qədər ən qısa müddətdə aradan qalxsın. Bu məqsədə xidmət edən hər hansı təşəbbüsə dəstək verməyə, bölgədə sabitliyin qurulmasına öz sadiqliyimizi bir daha vurğuladım. Mən, həmçinin Azərbaycana, Prezidentə və Azərbaycanın bütün hakimiyyət orqanlarına İranda təhlükə ilə üzləşən, ölkəni tərk etməyə məcbur olan çoxsaylı italyan vətəndaşların təxliyə olunmasında İtaliya üçün lazımi əməliyyatları həyata keçirdiyinə təşəkkürümü bildirmək istəyirəm. Sizin tərəf bu işdə tam tədbirləri gördü və daha dəqiq desək, Sizə təşəkkür edirəm ki, Tehrandakı səfirliyimizin müvəqqəti olaraq Bakıya köçürülməsinə, təhlükəsizlik şəraitində səmərəli şəkildə işləməsinə dəstək verdiniz. Bu, dostluğumuzu nümayiş etdirən digər elementdir.

Biz Azərbaycan ilə Avropa İttifaqı arasında dialoqun gücləndirilməsinin vacibliyini qeyd etdik. Enerji və daşımalar birmənalı olaraq iki sahədir ki, Avropa daha vacib rol oynaya bilər və oynamalıdır. Beləliklə, sərmayələrə dəstək, enerji şəbəkələrinə, beynəlxalq daşımalar marşrutlarına Azərbaycanın daha böyük inteqrasiyası təmin edilə bilər.

Ermənistanla münasibətlər mövzusunu müzakirə etdik. Mən Birləşmiş Ştatların verdiyi təkan sayəsində tarixi mərhələni əks etdirən normallaşma yolunda İtaliyanın tam dəstəyini bir daha vurğuladım. Düşünürəm ki, 2026-cı il bu baxımdan mühüm ilə çevrilə bilər, çünki çox vacibdir ki, bu dinamik regionun bütün potensialı istifadə edilsin. Həmçinin Ukraynada ədalətli və dayanıqlı sülhə yönəlmiş diplomatik səylər də öz nəticəsini verməlidir. Çünki ölkələrimiz çox dəstək göstərib, Ukrayna xalqının yanında olub.

Bir sözlə, iş əsnasında bizi birləşdirən çoxsaylı mövzular var. Söylədiyim kimi, bu işləri birgə icra edə bilərik. Yekun olaraq bir daha bildirirəm ki, biz aydın məsələlərin az sayda olduğu dövrdə yaşayırıq və tam təbiidir ki, bu kimi hallar az olanda biz bir-birimizə daha çox bağlanmalıyıq. Məhz bu səbəbdən İtaliya Azərbaycanla həyata keçirdiyi mühüm tərəfdaşlığı uzunmüddətli tərəfdaşlıq kimi görür və bundan sonra da uzunmüddətli olmasını istəyir.

Cənab Prezident, səmimi qəbula və bizimlə apardığınız çox maraqlı söhbətə görə bir daha təşəkkür edirəm.

# Beş il ərzində 14 qətnamə aludəçilikdir








## İlham Əliyev: Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü qədər eyni dəyərə malikdir. Bu məsələdə ikili standartlar qəbuledilməzdir

Ermənistanın paytaxtı İrəvan şəhərində "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə videobağlantı formatında çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Sabahınız xeyir və Bakıdan salamlar. Əvvəlcə mən "Avropa Siyasi Birliyi"nin Zirvə görüşündə çıxış üçün etdiyi dəvətə görə Prezident Koştaya təşəkkürümü bildirmək istəyirəm.

Prezident Koştanın Azərbaycana iki aydan az vaxt əvvəl etdiyi səfəri zamanı biz Zirvə görüşündə iştirakımı müzakirə etdik və razılaşdıq ki, mən tədbirə videobağlantı formatında qoşulacam. Mən, həmçinin auditoriyanı məlumatlandırmaq istərdim ki, bir il öncə Tiranaya səfərim zamanı Prezident Koşta və Prezident Fon der Lyayen Zirvə görüşünün 2026-cı ilin mayında Ermənistanda təşkil olunması ideyasına rəyimi soruşdular. Mən dəstəklədim. Öz növbəmdə mən tarazlı yanaşmanın saxlanılması üçün növbəti Zirvə görüşlərindən birinin Azərbaycanda keçirilməsi təklifi ilə çıxış etdim. Təklif qəbul olundu. Beləliklə, mən "Avropa Siyasi Birliyi"nin üzvlərini 2028-ci ilin mayında Azərbaycanda keçiriləcək Zirvə görüşünə dəvət edirəm. Yeri gəlmişkən, Ermənistan, həmçinin namizədliyimizi dəstəklədi. Bu, Azərbaycan ilə Ermənistan arasında sülhün real olmasının aydın göstəricisidir. Biz cəmi doqquz aydır ki, sülh şəraitindəyik və sülhdə yaşamağı öyrənirik.

Ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzaladılar. Prezident Tramp, artıq qeyd edildiyi kimi, həmçinin şahid kimi imza atdı. Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri sülh sazişinin mətnini parafladılar. Bizim üçün və əminəm ki, ermənistanlı həmkarlarımız üçün sülh qurulub. Sülhün əldə olunması faktı əsasında Azərbaycan 1990-cı illərin əvvəlindən Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdı. İndiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırılıb. Azərbaycan hətta əlavə addımlar atdı. Biz ilk dəfə olaraq öz neft məhsullarımızı - benzin və dizeli Ermənistana təchiz etməyə başladıq. Beləliklə, ticarət münasibətləri başladı. Bu vaxta qədər 12 min ton neft məhsullarımız Ermənistana ixrac edilib.

Sülh sahəsində digər nailiyyət bağlantılardır. "Trampın Beynəlxalq Sülh və Rifah Maşrutu" Azərbaycanı öz eksklavı Naxçıvanla birləşdirəcək və bununla yanaşı, o, Orta Dəhlizin bir hissəsinə çevriləcək. Həm Ermənistan, həm Azərbaycan sülhün əyani nəticələrini artıq görürlər. Bu fürsətdən istifadə edərək, mən Ermənistan-Azərbaycan sülh prosesində tutduğu mövqeyə görə Avropa Komissiyasına təşəkkürümü bildirmək istəyirəm.

Lakin əfsuslar olsun ki, heç də bütün Avropa təsisatları eyni yanaşmanı sərgiləmir. Onlardan biri Avropa Parlamenti, digəri isə Avropa Şurası Parlament Assambleyasıdır (AŞPA). Azərbaycan 2001-ci ilin yanvarından Avropa Şurasının üzvüdür. Yeri gəlmişkən, mən o vaxt parlament üzvü və Azərbaycanın nümayəndə heyətinin rəhbəri kimi AŞPA-nın fəal üzvlərindən biri idim. Nümayəndə heyətimizə 2024-cü ilin yanvarına qədər Avropa Şurasında heç zaman məhdudiyyətlər tətbiq edilməmişdi. 2023-cü ilin sentyabrında Azərbaycan Qarabağda separatçılığa son qoydu. Biz BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 30 il kağız üzərində qalan 4 qətnaməsini özümüz icra etdik. Dörd ay sonra AŞPA nümayəndə heyətimizə sanksiyalar tətbiq etdi. Əfsuslar olsun ki, ikili standartlar bu gün sanki AŞPA-nın iş təlimatıdır. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü qədər eyni dəyərə malikdir. Bu məsələdə ikili standartlar qəbuledilməzdir.

İndi isə Avropa Parlamentini götürək. Bu qurum sülh prosesinə dəstək vermək əvəzinə, ona qarşı sabotajla məşğul olur. İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra - 2021-ci ilin mayından 2026-cı ilin aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir. Ən sonuncusu cəmi dörd gün əvvəl - bilərəkdən Zirvə görüşü ərəfəsində qəbul edildi. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib. Cavab olaraq Azərbaycan parlamenti mayın 1-də Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlığı dayandırmaq, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin işində iştirakına son qoymaq və Avronest Parlament Assambleyasında üzvlüyün dayandırılmasına aid prosedurlara başlamaqla bağlı rəsmi qərar qəbul edib. Nəzərə alsaq ki, "Avropa Siyasi Birliyi"nin Zirvə görüşlərində biz öz fikirlərimizlə və narahatlıq doğuran məsələlərlə açıq şəkildə mübadilə edirik, mən, sadəcə, bu halda baş verənlər barədə həmkarlarımızı məlumatlandırmaq istədim ki, son qərarla bağlı səhv informasiya və manipulyasiya olmasın.

Yekun olaraq mən Baş nazir Paşinyanı "Avropa Siyasi Birliyi"nin Zirvə görüşünün Ermənistanda keçirilməsi ilə bağlı təbrik etmək istəyirəm. Bildirirəm ki, prosesə mane olmaq istəyən tərəflərin bütün səylərinə baxmayaraq, Azərbaycan sülh gündəliyinə sadiqdir və ermənistanlı həmkarımın şərhləri bunu aydın şəkildə göstərir. Mən Zirvə görüşünə uğurlar arzu edirəm. Sağ olun.

x x x

Tədbirdə Ermənistanın Baş naziri Nikol Paşinyan çıxış edərək, indi Azərbaycanla sülhə nail olunduğunu, artıq iki ildir heç bir tərəfdə tələfat olmadığını və bu dövrün müstəqilliyimizdən bəri yaşadığımız misilsiz illər olduğunu bildirdi. Qeyd etdi ki, indi iki ölkə arasında sülhü gücləndirmək və institusionallaşdırmaq məqsədilə tərəflər sıx şəkildə çalışırlar. Ermənistanın Baş naziri ilk dəfədir ki, Azərbaycan Prezidentinin onlayn formatda olsa da belə Ermənistanda keçirilən tədbirdə iştirak etdiyini xüsusi vurğuladı və ümidvar olduğunu bildirdi ki, 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin 10-cu toplantısında iştirak etmək üçün Azərbaycana səfər imkanı olacaq. Nikol Paşinyan Ermənistanın və Azərbaycanın "Avropa Siyasi Birliyi"nin toplantısını qəbul etmək üçün bir-birinin namizədliyini qarşılıqlı şəkildə dəstəklədiklərini də vurğuladı.

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta tədbir iştirakçılarına və videokonfrans vasitəsilə toplantıya qoşulan Prezident İlham Əliyevə təşəkkürünü ifadə etdi. Bildirdi ki, bu toplantı tarixi səciyyə daşıyır, çünki onun keçirilməsi Ermənistan və Azərbaycan arasında razılaşma sayəsində mümkün olub. Bu razılaşma Avropada bir sülh hekayəsidir, eskalasiyanın və müharibənin hökmranlıq etdiyi bir dünyada alqışlanmalıdır.

Ukrayna Prezidenti Volodimir Zelenski isə çıxışına mühüm mesajla başladı. "Biz Ermənistana və Azərbaycana yalnız sülh - dayanıqlı, hərtərəfli, uzunmüddətli sülh arzulayırıq. Biz bunu, Baş nazir, sizə, Prezident Əliyevə və hər iki ölkənin xalqlarına arzulayırıq", - deyə o xüsusi vurğuladı.

Kanadanın Baş naziri Mark Karni də Ermənistan ilə Azərbaycan arasında sülh istiqamətində əldə olunmuş tərəqqiyə görə təbriklərə qoşulduğunu bəyan etdi və Prezident İlham Əliyevi salamladı.

# Qərb siyasətçilərinin "korluğu", yaxud binoklla seyr edilən mənzərə...

Son illərdə müşahidə edilən geosiyasi və geoiqtisadi proseslər onu deməyə əsas verir ki, artıq dünyada beynəlxalq hüquq deyilən bir şey qalmayıb, onun yerini güc amili tutub. Ayrı-ayrı beynəlxalq təşkilatlar qlobal güc mərkəzlərinin girovyna çevriliblər. Dünya çapında oxşar problemlərin ətrafında müzakirələr bəlli dairələrdən gələn sifarişlər əsasında aparılır, qərəzli ictimai rəy formalaşdırlır və sonda da selektiv mahiyyət daşıyan qərarlar, qətnamələr qəbul olunur, onların icrası üçün saxta mexanizmlər formalaşdırılır.

Belə qara yel dalğası respublikamızdan da yan keçməyib. Son 30 ildə Azərbaycan da müxtəlif beynəlxalq təşkilatların və güc mərkəzlərinin ikili standartlar yanaşmalarına tuş gələn ölkələr sırasında yer alır.

## Qərb siyasətçilərinin sərhəd tanımayan fitnəkarlığı

Qərb siyasətçilərinin fitnəkarlığını xüsusi vurğulamaq lazımdır. Azərbaycan xalqı yaxşı bilir ki, ermənilər bizim torpaqları işğal edəndə Qərb siyasətçiləri kor olurlar. Amma, biz torpaqlarımızı işğaldan azad edəndə Qərb siyasətçiləri hər şeyi görürlər. Hətta binokldan da istifadə edirlər.

Ötən əsrin doxsanıncı illərinin əvvəllərindən etibarən havadarlarının dəstəyinə arxalanan Ermənistan Azərbaycana qarşı təcəvüzkarlıq siyasətinə başlayıb, ərazilərimizin 20 faizini işğal altına alıb. Bu işğalın kədərli sonluğu olaraq bir milyondan artıq azərbaycanlı doğma yurd yerlərini tərk etmək, qaçqınlıq və məcburi köçkünlük taleyi yaşamaq məcburiyyətində qalıb. Bu, müstəqilliyini yenicə bərqərar etmiş Azərbaycan üçün sözün əsl mənasında humanitar böhran idi. İnsanlar vaqonlarda, çadırlarda, yarımçıq tikililərdə həyat sürürdülər, ərzaq təminatı son dərəcə çətin idi.

Bəs Qərb dairələrinin Ermənistanın işğalçılıq siyasətinə, onun yaratdığı hümanitar böhrana münasibəti necə idi? Keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqları xatırlayaq. Məlum olduğu kimi, Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranan keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı təxminən üç onillik ərzində ATƏT-in artıq tarixin arxivinə qovuşmuş Minsk qrupu formatında danışıqlar aparılıb. Azərbaycan danışıqlarda daim o mövqedən çıxış edirdi ki, ATƏT-in Minsk qrupu formatında sülh danışıqları substantiv nəticələrə hesablanmalıdır. Lakin münaqişənin yaranmasında bilavasitə günahkar olan Ermənistan fərqli mövqe sərgiləyərək işğal məhsulu olan keçmiş status-kvonun sonsuzadək saxlanmasına çalışırdı. Anlaşılmaz məqam ondan ibarət idi ki, ATƏT-in Minsk qrupu işğalçı Ermənistanla təcavüzə məruz qalan Azərbaycan arasında daim bərabərlik işarəsi qoyurdu. Biz son illərdə beynəlxalq birliyin hansısa bir dövlətin digər ölkənin sərhədlərini pozmasına, ərazisini işğal etməsinə sanksiyalarla müşayiət edilən çox operativ və kəskin münasibət bildirməsinin şahidi olmuşuq. Bəs zor tətbiq etməklə Azərbaycanın ərazisinin 20 faizini öz nəzarəti altına alan Ermənistan nə üçün belə sanksiyalardan kənarda qalmalı idi? Oxşar məzmunlu münaqişələrə selektiv yanaşma nəyin təzahürüdür? Haqlı sual yaranır: Niyə Ermənistana 30 il ərzində işğalçılıq siyasətini davam etdirdiyinə görə gözün üstündə qaşın var deyən tapılmadı və təcavüzkar dövlət cəzalandırılmadı? Məgər bunu etməyə beynəlxalq təşkilatların, o cümlədən də müvafiq mandat verilən ATƏT-in Minsk qrupunun gücümü çatmadı? Yox! Sadəcə, ortada istək, siyasi iradə yox idi. Açıq-aydın hiss olunurdu ki, müəyyən qüvvələr özünü ərköyün uşaq timsalında aparan Ermənistanın başını sığallayırlar. Belə loyal münasibət işğalçı Ermənistanı yeni ilhaq siyasətinə ruhlandırırdı.



Qərbin demokratiya, söz və ifadə azadlıqları, insan və vətəndaş hüquqları kimi məsələlərdə özündən müştəbehliyi hər kəsə yaxşı bəllidir. Avropa özünü dünyaya demokratiyanın beşiyi və şəriksiz sahibi kimi təqdim edir. Bu pafosun arxasında isə Qərbin kədərli reallıqları və riyakarlığı dayanır. Bu gün ayrı-ayrı dövlətlərin və təşkilatların timsalında aydın şəkildə görünür ki, əslində Qərb ənənəvi Avropa demokratiyasından çox uzaqlaşıb. Müşahidə edilən proseslər onu deməyə əsas verir ki, hazırda demokratiya, müxtəlif azadlıqlar Qərb siyasətçiləri üçün milli dövlətlərə qarşı təzyiq alətinə çevrilib. Hansı dövlət ki, müstəqil siyasi kurs həyata keçirir, suverenlik prinsipindən çıxış edir, milli maraqlarını qorumağa çalışır həmən güc mərkəzlərinə bağlı olan bəzi Avropa təsisatlarının tənqid hədəfinə çevrilir.

Yenə də yaxın tarixə və elə bu günümüzə aid faktlara nəzər salaq. Təbii ki, Azərbaycan işğal faktı ilə barışmadı və 2020-ci il sentyabrın 27-də düşmənin növbəti təxribatlarına

## Tarixi ədalət, beynəlxalq hüquq təmin olunsa da...

cavab olaraq əks-hücum əməliyyatına başladı. Azərbayacan ədalətli müharibəyə qoşulmuşdu. Ölkəmizin yeganə məqsədi işğal faktına son qoymaq idi. Ancaq söhbət erməni lobbisinə bağlı olan Qərb siyasətçilərindən gedir. Onlar transmilli media vasitəsi ilə respublikamıza qarşı qara piara başladılar. Bizdən müharibənin dayandırlması istənilirdi. Azərbaycan isə Qərb siyasətçilərinin iftiralarına məhəl qoymayaraq ədalətli müharibəni 44 gün ərzində zəfərlə tamamladı, hərbi-siyasi yolla ərazi bütövlüyünü təmin etdi. Bundan sonra Müzəffər Ordumuz 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında Ermənistanın silahlı qüvvələrinə növbəti dəfə məğlubiyyət acısı yaşatdı. Bununla da ərazilərimizdə separatizmin kökü təmizləndi.

Azərbaycan öz gücünə tarixi ədaləti və beynəlxalq hüququ tam təmin edib. Son beş ildə Cənubi Qafqazda tarixi proseslər izlənilib. Artıq Azərbaycanın yaratdığı reallıqların nəticəsi olaraq region heç vaxt olmadığı qədər sülhə yaxınlaşıb. Bu proseslər təqdirlə qarşılanmalıdır və qarşılanır da . Ötən il avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmalar ona dəlalət edir ki, dünya Azərbaycanın sülh gündəliyini alqışlayır.

Fəqət bəzi Qərb dairələri və garagüruh siyasətçiləri işğal illərində, müharibə günlərində olduğu kimi, yenə də öz amplualarındadırlar. Onlar müharibənin başa çatmasına, beynəlxalq hüququn təmin olunmasına, Azərbaycanla Ermənistan arasında sülh və etimad quruculuğu proseslərinin başlamasına rəğmən, bir daha, necə deyərlər, köhnə palan içi tökməklə məşğuldurlar. Müharibədən sonra Qərb siyasətçiləri hətta regiona binokllarla gəlməyi belə özlərinə rəva gördülər. Onların iki ölkə arasındakı şərti sərhəddlərdə binoklla Azərbaycan ərazilərini seyr etmələrinin və donos xarakterli hesabatlar hazırlamalarının hansı məntiqi var? Açıq deyək ki, bu, Qərb siyasətçilərinin üzərindən heç vaxt silinməyəcək qara bir ləkədir.

Postmüharibə dövründə bəlli dairələrin, xaricdəki erməni lobbisinin danışan dilinə çevrilən Avropa Parlamentinin (AP) qərəzçiliyi də açıq-aydın görünür. Təzada bir baxın: Ermənistanın siyasi hakimiyyəti Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, Qarabağı könüllü tərk etmiş ermənilərin geri qaytarılmasının gündəmdə olmadığını dəfələrlə bəyan etsə də, AP-nin deputatları özlərini separatçıların, revanşistlərin təəssübkeşləri kimi aparırlar. Budurmu Qərb demokratiyası və insan haqları anlayışı? Sual olunur: Bu gün Qarabağdan Ermənistana könüllü köç etmiş ermənilərin hüquqlarından danışan AP-nin deputatları nə üçün otuz il ərzində azərbaycanlı qaçqın və məcburi köçkünlərə münasibətdə ağızlarına su alıb susurdular?

***Mübariz ABDULLAYEV***

# Heydər Əliyev irsi: şanlı Zəfərdən parlaq gələcəyə






















Mayın 3-də Laçın şəhərində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev irsi: şanlı Zəfərdən parlaq gələcəyə" mövzusunda tədbir keçirilib.

Əvvəlcə tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov qeyd edib ki, müasir Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsi Azərbaycan dövlətçilik tarixində müstəsna yer tutur: "Onun uzaqgörən və qətiyyətli siyasəti nəticəsində ölkəmizdə müasir, demokratik və dünyəvi dövlətin möhkəm təməli qoyulmuşdur. Milli maraqlara əsaslanan dövlət idarəçiliyi, elmin, təhsilin və mədəniyyətin inkişafı məhz Ulu Öndərin adı ilə bağlıdır. Bu gün əldə etdiyimiz uğurlar onun müəyyən etdiyi strateji kursun məntiqi davamıdır".

M.Məmmədov bildirib ki, Azərbaycanın enerji strategiyasının uğurla reallaşdırılması, dünya iqtisadiyyatına inteqrasiyası, beynəlxalq təşkilatlarla əlaqələrinin genişlənməsi və ölkəmizin mühüm regional logistika mərkəzinə çevrilməsi bilavasitə Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir: "Məhz Onun rəhbərliyi dövründə Azərbaycan öz geostrateji mövqeyindən, iqtisadi və mədəni potensialından səmərəli istifadə edərək qısa müddətdə beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınmış və dünyanın dinamik inkişaf edən dövlətlərindən birinə çevrilmişdir".

"Uzun illər həsrətində olduğumuz Laçın bu gün azaddır, bərpa olunur və sürətlə inkişaf edir. Bu torpaqların azad olunması Azərbaycan xalqının birliyinin, güclü dövlətin və qətiyyətli liderliyin bariz nümunəsidir. Ümummilli Lider Heydər Əliyev Laçının strateji əhəmiyyətini yüksək qiymətləndirərək bildirirdi ki, bu rayon Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü baxımından xüsusi önəm daşıyır. Bu baxış bu gün də öz təsdiqini tapır. 1992-ci ildə işğal nəticəsində dağıdılan Laçın bu gün yenidən qurulur, öz əsl sahiblərinə qovuşur. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan tarixi qələbə Ulu Öndərin siyasətinin məntiqi davamıdır. Bu gün Prezident İlham Əliyev tərəfindən bu siyasi kurs uğurla davam etdirilir və Azərbaycan daha da güclənir, beynəlxalq arenada mövqelərini möhkəmləndirir" ,- deyə səlahiyyətli nümayəndə vurğulayıb.

Onun sözlərinə görə, bu gün Laçında genişmiqyaslı quruculuq işləri aparılır. "Müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, yollar inşa edilir. Artıq yüzlərlə ailə doğma yurduna qayıdıb və bu proses davam edir. Laçın artıq yalnız bərpa olunan şəhər deyil, o, gələcəyin şəhərinə çevrilir. Burada həm müasir infrastruktur, həm də milli-mədəni dəyərlər üzərində qurulan yeni həyat formalaşır" , - deyən M.Məmmədov əlavə edib ki, Heydər Əliyev ideyaları Azərbaycanın inkişafının, sabitliyinin və gələcəyinin əsasını təşkil edir.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bugünkü tədbirin qədim Azərbaycan torpağı olan, uzunmüddətli işğal və məhrumiyyətlərə baxmayaraq, həsrətimizi unudulmaz sənətkarımız Məhəbbət Kazımovun məşhur ifası ilə yaşatdığımız, ordumuzun rəşadəti sayəsində azad edilərək artıq dirçəliş və inkişaf mərhələsinə qədəm qoymuş Laçında keçirilməsi xüsusi rəmzi məna daşımaqla həm tarixə ehtiramın, həm də gələcəyə inamın ifadəsidir: "Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində ölkəmizin ərazi bütövlüyü və mütləq suverenliyinin təmin olunması xalqımızın milli qürurunun bariz təcəssümü və dövlətçilik tariximizin şanlı səhifəsi olmaqla, vaxtilə "Bütün işğal olunmuş torpaqlar Azərbaycan xalqının iradəsi, qəhrəman oğulların şücaəti ilə azad olunacaq", - deyən Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyalarının təntənəsidir".

Tahir Budaqov vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirərək dövlətçiliyimizi məhv olmaq təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyini möhkəmləndirərək hüquqi, dünyəvi və demokratik dövlət kimi möhkəm təməllər üzərində gələcəyə inamla addımlamasını təmin etmişdir: "Onun xalqımız qarşısında ən böyük xidmətlərindən biri də siyasi varisliyin təmin edilməsidir. Bu gün Heydər Əliyev yolunu inamla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycana möhtəşəm uğurlar qazandırmaqla onun gücünün və nüfuzunun daha da artmasını şərtləndirir. Tarixi Zəfər qazandıqdan sonra işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri Böyük Qayıdış proqramının uğurla icra olunduğunu göstərir. Laçın bu prosesin ən gözəl nümunələrindəndir. Burada innovativ yanaşmalar əsasında sosial inklüzivlik, ekoloji təhlükəsizlik, o cümlədən yaşıl infrastruktur quruculuğu əsas götürülməklə "ağıllı şəhər" konsepsiyası həyata keçirilir ki, bu da dayanıqlı məskunlaşmanın, o cümlədən müasir standartlara uyğun yüksək keyfiyyətli həyat şəraitinin təmin olunmasına əlverişli zəmin yaradır. Laçın təkcə strateji əhəmiyyətə malik ərazi deyil, həm də Azərbaycanın ən dilbər guşələrindən biridir. Böyük turizm potensialına malik rayonun zəngin təbiəti, unikal iqlimi və relyefi onu xüsusilə cazibədar edir. Qarşıdakı dövrdə böyük quruculuğa paralel olaraq turizmin müxtəlif sahələrinin, o cümlədən ekoloji, dağ, sağlamlıq turizminin inkişafı ölkə iqtisadiyyatına mühüm töhfələr verəcəkdir".

YAP Sədrinin müavini bildirib ki, Ümummilli Lider Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi ölkəmizin inkişafında müstəsna rol oynayır: "Milli maraqları daim uca tutan partiyamızın əksər üzvləri Heydər Əliyev ideyalarına sadiqlik nümayiş etdirərək Azərbaycanın daha da güclənməsi naminə məqsədyönlü fəaliyyət göstərirlər. YAP Laçın rayon təşkilatı da yeni dövrün reallıqlarından irəli gələn çağırışları bundan sonra da diqqət mərkəzində saxlamalı və Böyük Qayıdış prosesinə fəal dəstəyini davam etdirməlidir. Siz bu gün şanlı tarixin canlı şahidi və iştirakçısı olaraq doğma torpağımızda yeni həyat qurmaq kimi şərəfli bir missiyanı ləyaqətlə yerinə yetirirsiniz. Bu, böyük xoşbəxtlik olmaqla bərabər, ciddi məsuliyyətdir. Əminik ki, dövlətimizin dəstəyi, sizin zəhmətiniz və milli birliyimiz sayəsində Laçın Azərbaycanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcək və ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayacaqdır. Hər birinizə möhkəm cansağlığı, uzun ömür və şərəfli fəaliyyətinizdə davamlı uğurlar arzulayıram".

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Şahbaz Muradov çıxışında bildirib ki, müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Ulu Öndər Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaradıb ki, onun öyrənilməsində, təbliğinə və tətbiqinə hər zaman böyük ehtiyac olacaq. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - deyən Ulu Öndər nəinki xalqımızın, həm də bütünlükdə müsəlman aləminin, türk dünyasının ən böyük tarixi şəxsiyyətlərindəndir.

Onun sözlərinə görə, Ümummilli Liderimiz Heydər Əliyev hələ sovetlər dövründə respublikamıza rəhbərlik etdiyi vaxtlarda Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş İttifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin edib, müstəqilliyimizə zəmin yaradan uzaqgörən və müdrik addımlar atıb: "1971-ci ildə indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması, minlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi də Ulu Öndərimizin xalqımız qarşısında böyük xidmətlərindəndir. Heydər Əliyev ilk azərbaycanlı idi ki, SSRİ kimi nəhəng dövlətin rəhbərliyi səviyyəsinə yüksəlib, xalqına möhtəşəm xidmətləri ilə Azərbaycanın güvənc yerinə çevrilib".

Ş.Muradov qeyd edib ki, müstəqilliyimizin ilk illərində Azərbaycan ağır vəziyyətdə olarkən - 1993-cü ilin iyun ayında xalqımızın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev siyasi hakimiyyətə qayıtdı: "Bu tarixi hadisə Azərbaycanı və bütünlükdə xalqımızı fəlakətlərdən xilas etdi. Həmin tarixdən etibarən Azərbaycanın intibahı başlandı".

Hazırda ölkəmizdə Heydər Əliyev siyasətinin uğurla davam etdirildiyini deyən natiq diqqətə çatdırıb ki, Prezident İlham Əliyev Azərbaycanı güclü və qalib dövlətlər sırasına çıxarıb. "Cənab İlham Əliyevin dediyi kimi, Azərbaycan heç zaman indiki kimi qüdrətli olmayıb. Azərbaycan dünyada şöhrət qazanıb, dövlətimizin başçısı isə dünya liderləri arasında yüksək intellektli, praqmatik düşüncəli, uzaqgörən siyasətçi və qətiyyətli lider kimi tanınır. Prezident, Ali Baş Komandan İlham Əliyev ata vəsiy-

davamı 5-ci səhifədə

# Heydər Əliyev irsi: şanlı Zəfərdən parlaq gələcəyə
















əvvəli 4-cü səhifədə

yətini yerinə yetirib, şanlı ordumuz işğalçıları torpaqlarımızdan təmizləyərək Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin edib. Cənab Prezident tarixi ədaləti bərpa edərək Azərbaycan xalqının adını qalib xalq kimi tarixə yazdırdı” , - deyə Ş.Muradov vurğulayıb.

Çıxış edən AMEA-nın Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, Əməkdar mədəniyyət işçisi Solmaz Məhərrəmova bildirib ki, Ümummilli Lider Heydər Əliyevin ən böyük gücü xalqın ona sonsuz sevgisində idi: “O, azərbaycançılıq ideologiyasını dövlət siyasətinin mərkəzinə gətirdi, hələ 1978-ci ildə ana dilimizə dövlət dili statusu qazandırmaqla milli kimliyimizi qorudu. Heydər Əliyev həm də müasir dövlətimizin iqtisadi və siyasi-hüquqi sütunlarını quran memardır”.

Onun sözlərinə görə, Ulu Öndərin fəaliyyətində Laçın rayonunun həmişə xüsusi yeri olub. “Heydər Əliyev Laçını Azərbaycanın strateji cəhətdən ən önəmli, çox gözəl guşələrindən biri adlandırırdı. 1996-cı ildə laçınlı ziyalılarla keçirdiyi görüşdə mən də iştirak edirdim. Həmin görüşdə Ümummilli Liderimiz laçınlıların mərdliyini, dövlətə sadiqliyini xüsusi qeyd etmişdi. O, həmişə inanırdı ki, biz mütləq doğma torpaqlarımıza qayıdacağıq. Bu gün biz qürurla deyirik: Ulu Öndərin ruhu şaddır! Çünki Onun başladığı yolu layiqincə davam etdirən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun qüdrəti sayəsində Laçınımız azaddır. Bizim borcumuz Heydər Əliyevin əmanəti olan müstəqil Azərbaycanı qorumaq və daha da ucaltmaqdır” , - deyə S.Məhərrəmova vurğulayıb.

Azərbaycan Milli Qəhrəmanlar Cəmiyyətinin Laçın üzrə nümayəndəsi, Milli Qəhrəman Oqtay Güləliyevin həyat yoldaşı Afət Novruzova çıxışında deyib ki, Ulu Öndər Heydər Əliyevin həyat yolu sadəcə bir liderin taleyi deyil, bütöv bir xalqın dirçəlişinin, dövlətin möhkəmlənməsinin və milli ruhun yenidən doğulmasının tarixidir: “Onun hər addımı, hər qərarı Azərbaycan xalqına olan sonsuz sevgi və bağlılıqdan qaynaqlanırdı. O, xalqına güvəndi, xalq da ona inandı”.

Müasir Azərbaycanın öz gücünü bütün dünyaya nümayiş etdirdiyini deyən A.Novruzova qeyd edib ki, Ulu Öndərin təməlini qoyduğu müstəqil dövlətimiz bu gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yeni zirvələr fəth edir. “44 günlük Vətən müharibəsində Azərbaycan xalqı bir yumruq kimi birləşdi. Analar övladlarını Vətənə əmanət etdi, atalar qürurla oğullarını döyüşə yola saldı. O günlərdə igid oğullarımız tarix yazdı. Mənim həyat yoldaşım - Milli Qəhrəman Oqtay Güləliyev də Birinci Qarabağ müharibəsində bu müqəddəs yolun şərəfli yolçularından biri olub. O, Vətən uğrunda canından keçərkən bir an belə tərəddüd etmədi. Çünki bu torpaq onun üçün sadəcə doğulduğu yer deyil, namusu, qüruru və varlığı idi”.

A.Novruzovanın fikrincə, bu gün Azərbaycan bayrağı azad Qarabağda qürurla dalğalanırsa, bu, şəhidlərimizin ruhunun qələbəsi, qazilərimizin, əsgər və zabitlərimizin şücaətinin nəticəsidir: “Milli Qəhrəman Oqtayın da, mənim də doğulub boya-başa çatdığımız müqəddəs Laçın torpağı Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi, şəhidlərimizin qanı və canı bahasına və rəşadətli Azərbaycan Ordusunun şücaəti sayəsində azadlığına qovuşdu. Bu gün bütün şəhidlərimizin ruhu şaddır. Mən isə sonsuz qürur və böyük xoşbəxtlik hissi ilə deyirəm ki, doğma Laçınımıza, öz evimizə qayıtmışam”.

A.Novruzova bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva şəhid ailələrinə və qazilərə yüksək diqqət və qayğı göstərirlər: “Dövlət öz qəhrəmanlarını unutmur, onların ailələrini daim diqqətdə saxlayır”.

Çıxış edən Laçın rayonu, Ə.H.Məmmədov adına Zabux kənd tam orta ümumtəhsil məktəbinin hərbi rəhbəri, Vətən müharibəsi qazisi Taleh İsgəndərli “30 illik həsrətə son qoyan Vətən müharibəsində iştirak etmək, işğaldan azad olunan torpaqlarımızın, o cümlədən doğma Laçının azadlığı uğrunda döyüşlərdə yer almaq mənə də nəsib oldu. Şükürlər olsun ki, xalqımız bu mübarizədən şanlı qələbə ilə çıxdı” - deyib.

Onun sözlərinə görə, Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında sıx birləşərək, “dəmir yumruq” kimi vahid gücə çevrildi və dövlətimizin ərazi bütövlüyünü bərpa etdi: “Şəhidlərimizin əziz xatirəsini daim uca tutmaq hər birimizin müqəddəs borcudur. Bu gün mən ikiqat xoşbəxtəm. Çünki artıq doğma Laçınımızda - bərpa edilən, yenidən qurulan ərazilərimizdə yaşamaq və fəaliyyət göstərmək mənə qismət olub”.

T.İsgəndərli Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan qürur duyduğunu söyləyib. O qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası ölkəmizin inkişafında mühüm rol oynayır: “Biz hər zaman Müzəffər Ali Baş Komandanımızın ətrafında sıx birləşmişik və bundan sonra da bu birliyimizi qoruyacağıq”.

Milli Məclisin deputatı Rövşən Muradov da çıxışında Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən bəhs edib. O, Ulu Öndərin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbirin Laçın şəhərində keçirilməsinin əhəmiyyətini vurğulayıb. Milli Məclisin deputatı laçınlıların hər zaman dövlətçiliyə sadiq olduğunu deyib.

Sonra tədbirdə YAP Laçın rayon təşkilatının ictimai-siyasi həyatında uğurlu fəaliyyətinə görə bir qrup şəxsə fəxri fərmanlar, partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub. Eyni zamanda, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə keçirilmiş inşa, bədii qiraət və mahnı müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

Daha sonra tədbir iştirakçıları Laçın rayonunun Sus kəndində ağacəkmə aksiyasında iştirak ediblər.

# Maliyyə Nazirliyində YAP-a yeni qəbul olunan əməkdaşlara üzvlük vəsiqələri təqdim edilib











Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə Yeni Azərbaycan Partiyasına (YAP) üzv qəbul olunmuş Azərbaycan Respublikası Maliyyə Nazirliyinin bir qrup əməkdaşına partiyanın üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, daha sonra Ümummilli lider Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, vətən və xalq qarşısında tarixi xidmətlərindən bəhs olunub.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, Ulu öndər Heydər Əliyev bütün şərəfli ömrünü doğma Vətəninə həsr edərək, fəaliyyətinin hər bir mərhələsində Azərbaycan naminə yorulmadan çalışmış, millətimizin işıqlı gələcəyinin təmin olunması üçün əvəzsiz xidmətlər göstərmişdir: “Ümummilli Liderin zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda addımlayan müasir Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza ataraq şanlı Zəfər zirvəsinə yüksəlmişdir”.

Tahir Budaqov vurğulayıb ki, Ümummilli Liderin əbədiyaşar ideyalarına sadiqlik nümayiş etdirən partiyamız ölkəmizin qarşısında duran strateji hədəflərin gerçəkləşməsinə dəyərli töhfələr verir: “YAP yeni dövrün reallıqları və çağırışlarından irəli gələrək suveren Azərbaycanın milli maraqlarının təmini üçün öz üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək”.

Maliyyə naziri Sahil Babayev bildirib ki, Ümummilli lider Heydər Əliyevin həm keçmiş SSRİ dönəmində, həm də müstəqillik dövründə Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin tarixində yüksəliş və inkişaf dövrü olub. Onun uzaqgörən və müdrik siyasəti nəticəsində Azərbaycanda sosial-iqtisadi həyatın bütün sahələrində böyük uğurlar qazanılıb, ölkəmizin sonrakı illərdə də davamlı inkişafı üçün möhkəm zəmin yaradılıb. Nazir qeyd edib ki, Ulu Öndərin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin qətiyyətli liderliyi ilə Azərbaycan bu gün regionun ən güclü və nüfuzlu dövlətlərindən birinə çevrilib, iqtisadi qüdrəti daha da artıb, sosial rifahın yüksəldilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunub.

Maliyyə naziri eyni zamanda, Yeni Azərbaycan Partiyasının yarandığı gündən etibarən keçdiyi şərəfli inkişaf yolundan bəhs edib, ölkəmizin ictimai-siyasi həyatında oynadığı aparıcı rolu və cəmiyyətdə qazandığı yüksək etimadı xüsusilə vurğulayıb.

Tədbirdə Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş Nazirlik əməkdaşlarına üzvlük vəsiqələri təqdim edilib.

Partiyaya yeni qəbul olunmuş əməkdaşlar çıxış edərək bu etimadı yüksək qiymətləndirdiklərini bildirib, dövlətçiliyə, milli maraqlara və Ulu Öndərin ideyalarına daim sadiq qalacaqlarını, ölkəmizin inkişafı naminə bundan sonra da məsuliyyətlə çalışacaqlarını vurğulayıblar.

Daha sonra Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib, xatirə fotosu çəkilib.

# Böyük Qayıdış: Heydər Əliyev ideyalarının təntənəsi















Mayın 4-də Xankəndi şəhərində Yeni Azərbaycan Partiyası (YAP) və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Böyük Qayıdış: Heydər Əliyev ideyalarının təntənəsi" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Qarabağ Universitetinin inzibati binasında Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Çıxış edən Qarabağ Universitetinin rektoru Şahin Bayramov vurğulayıb ki, bu gün müasir Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünü doğma Qarabağda, Xankəndi şəhərində qeyd etmək böyük rəmzi məna daşıyır və qürurverici hadisədir. O qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərin qazanılması və işğaldan azad olunmuş ərazilərimizin sürətlə dirçəldilməsi məhz Ulu Öndərin uzaqgörən siyasətinin təntənəsidir: "Doğma yurdlarımıza elm, təhsil və mədəni dəyərlərimizlə qayıdışın simvoluna çevrilən Qarabağ Universitetinin yaradılması və hazırda minlərlə gəncin burada ali təhsil alması məhz Heydər Əliyev ideyalarının uğurla reallaşdırılmasının bariz nümunəsidir".

"Qarabağ Universitetinin başlıca missiyası yalnız yüksəkixtisaslı kadrlar hazırlamaq deyil, eyni zamanda, Vətəninə, xalqına və dövlətinə bağlı, Heydər Əliyev ideyalarına və milli-mənəvi dəyərlərə sadiq gənclər yetişdirməkdir. Qarabağ Universitetində Ümummilli Liderimizin zəngin irsinin öyrənilməsi və təbliği daim diqqət mərkəzində saxlanılır. Əminik ki, Ulu Öndərin misilsiz ideyalarına bağlılıq gənclərimizin işıqlı gələcəyinə parlaq yol açacaq və gələcəyin peşəkar mütəxəssisləri kimi onların ölkənin və regionun inkişafına mühüm töhfələr verməsində müstəsna rol oynayacaq",- deyə rektor vurğulayıb.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bugünkü tədbirimizin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, uzun illər işğal altında qaldıqdan sonra dövlət başçımızın qətiyyətli siyasəti, Müzəffər Ordumuzun şücaəti nəticəsində azad edilərək öz əzəli sahibinə qovuşan Xankəndi şəhərində keçirilməsi xüsusi tarixi, mənəvi və siyasi əhəmiyyətə malikdir. Onun sözlərinə görə, bu torpaqlarda yenidən həyatın canlanması, iqtisadiyyatın bütün sahələrinin, elm və təhsilin dirçəldilməsi dövlətimizin gücünün, xalqımızın sarsılmaz iradəsinin və milli həmrəyliyimizin parlaq təzahürüdür: "Bu gün əziz xatirəsini böyük ehtiramla yad etdiyimiz Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin xilaskarı və qurucusu kimi müasir tariximizdə silinməz iz qoymuşdur. Ulu Öndər daim Qarabağın, o cümlədən Xankəndinin Azərbaycanın ayrılmaz hissəsi olduğunu qətiyyətlə bəyan etmiş, ölkəmizin ərazi bütövlüyünün bərpasını dövlət siyasətinin əsas prioriteti kimi müəyyənləşdirmişdir. Onun məqsədyönlü siyasəti nəticəsində Azərbaycan taleyüklü sınaqlardan uğurla çıxaraq müstəqil dövlət kimi davamlı inkişaf yoluna qədəm qoymuşdur. Azərbaycanın müstəqilliyi və dövlətçilik ənənələri möhkəmləndirilmiş, mənəvi dəyərlərimizin qorunması, azərbaycançılıq ideologiyasına əsaslanan milli həmrəyliyin gücləndirilməsi istiqamətində mühüm nailiyyətlər qazanılmış və bugünkü - müasir və qalib Azərbaycanın etibarlı bünövrəsi yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən Heydər Əliyev siyasətinin müasir dövrün çağırışlarına uyğun zənginləşdirilərək uğurla davam etdirilməsi nəticəsində Azərbaycan öz qüdrətini daha da artıraraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ölkəmiz 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq Zəfərə imza ataraq ərazi bütövlüyünü, 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində isə mütləq suverenliyini bərpa etmiş, Azərbaycan Bayrağı işğaldan azad edilmiş bütün ərazilərdə, o cümlədən Xankəndi şəhərində ucaldılmışdır".

Tahir Budaqov bildirib ki, bu gün Böyük Qayıdış proqramının tərkib hissəsi kimi Xankəndidə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, müasir infrastruktur yaradılır, sosial obyektlər, yaşayış kompleksləri, təhsil və mədəniyyət müəssisələri inşa olunur: "Müzəffər Liderimizin qeyd etdiyi kimi, Qarabağ və Şərqi Zəngəzur bölgəsi, o cümlədən Xankəndi Azərbaycanın ən gözəl guşələrindən biridir və bu ərazilər qısa müddət ərzində regionun inkişaf mərkəzinə çevriləcəkdir".

YAP Sədrinin müavini vurğulayıb ki, Xankəndidə Qarabağ Universitetinin təsis olunması dövlət başçısının gələcəyə yönəlik aydın strateji baxışının bariz ifadəsidir: "Bu ali təhsil müəssisəsi bilik məkanı olmaqla yanaşı, həm də azad olunmuş torpaqlarda tarixi ədalətin bərpasının, intellektual potensiala əsaslanan mənəvi dəyərlərin və milli ruhun yüksəlişinin simvoludur. Prezident İlham Əliyevin vurğuladığı kimi, Qarabağ Universiteti regionun elm, təhsil və innovasiya mərkəzinə çevriləcək və gələcək inkişafın əsas dayaqlarından biri olacaqdır".

"Ümummilli Liderimizin xalqımıza siyasi mirası olan Yeni Azərbaycan Partiyası da dövlətimizin böyük quruculuq fəaliyyətinə yaxından dəstək verir. Partiyamız Böyük Qayıdış strategiyasının həyata keçirilməsində, azad olunmuş ərazilərdə sosial-iqtisadi və humanitar layihələrin təşviqində, xüsusilə gənclərin bu proseslərə cəlb olunmasında mühüm rol oynayır. Qarabağ Universiteti ilə əməkdaşlıq çərçivəsində maarifləndirici tədbirlərin keçirilməsi, tələbələrin inkişafına yönəlmiş layihələrin dəstəklənməsi isə dövlətçilik ideallarına sadiq, yüksək intellektual və mənəvi keyfiyyətlərə malik gənc nəslin formalaşmasına xidmət edir", - deyə Tahir Budaqov əlavə edib.

YAP Sədrinin müavini qeyd edib ki, Ulu Öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi, təhsilin inkişafına da xüsusi önəm vermiş, istər SSRİ dövründə, istərsə də müstəqillik illərində respublikamıza rəhbərlik etdiyi zaman milli kadr potensialının formalaşdırılmasını strateji vəzifə kimi müəyyənləşdirərək bu istiqamətdə ardıcıl siyasət həyata keçirmişdir: "Bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva təhsilin inkişafını xüsusi diqqət mərkəzində saxlayırlar. Yeni məktəblər, universitetlər inşa edilir, mövcud infrastruktur müasirləşdirilir, gənclərin istər ölkə daxilində, istərsə də dünyanın aparıcı universitetlərində təhsil almaq imkanları genişləndirilir. Tarixi ənənələr, milli dəyərlər və müasir çağırışlara uyğun qurulan təhsil sistemində aparılan davamlı islahatlar gələcəyə istiqamətlənmiş addımlar kimi sosial-iqtisadi və humanitar inkişafa təkan verir. Dövlət başçısının siyasi iradəsi sayəsində fəaliyyətə başlayan Qarabağ Universiteti təkcə bir ali təhsil müəssisəsi deyil, eyni zamanda, Azərbaycan xalqının möhtəşəm Zəfərinin, quruculuq əzminin və intellektual inkişafının rəmzidir. Şübhə yoxdur ki, universitetdə çalışan professor-müəllim heyəti və burada təhsil alan tələbələrin əzmkar fəaliyyəti Qarabağ bölgəsinin və bütövlükdə ölkəmizin elmi və mənəvi intibahına mühüm töhfələr verəcəkdir".

Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları üzrə xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov çıxışında bildirib ki, 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Xankəndi şəhəri və ətraf ərazilər tam nəzarətə götürülərək ölkənin suverenliyi bərpa edilib. O qeyd edib ki, bu tarixi nailiyyət Azərbaycan dövlətinin gücünü, xalqın birliyini və qətiyyətli siyasi iradəni bir daha nümayiş etdirib.

Səbuhi Qəhrəmanov vurğulayıb ki, hazırda azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri sürətlə davam etdirilir. Onun sözlərinə görə, Böyük Qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma torpaqlara qayıdışı təmin olunur və bu proses mərhələli şəkildə həyata keçirilir: "Artıq Xankəndi şəhəri və ətraf yaşayış məntəqələrində məskunlaşma prosesi başlayıb, əhali üçün müasir yaşayış şəraiti yaradılır. Regionda sosial-iqtisadi inkişafın təmin olunması məqsədilə mühüm infrastruktur layihələri icra edilir. Xankəndi dəmir yolu xəttinin bərpası, Xocalı hava limanının yenidən qurulması, yol və kommunikasiya xətlərinin çəkilməsi regionun strateji əhəmiyyətini daha da artırır. Bununla yanaşı, sahibkarlığın inkişafına dəstək göstərilir, yeni iş yerləri yaradılır və investisiya mühiti yaxşılaşdırılır. Artıq bölgəyə özəl sektor tərəfindən 90 milyon manatdan çox investisiyalar cəlb olunub".

S.Qəhrəmanov çıxışında qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik kursu bu gün də uğurla davam etdirilir və Azərbaycan regionda güclü mövqeyini daha da möhkəmləndirir: "Prezident İlham Əliyevin rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzur yaxın illərdə ölkənin ən inkişaf etmiş bölgələrindən birinə çevriləcək".

Qarabağ Universitetinin Humanitar və sosial elmlər fakültəsinin müəllimi Şamxal Əbilov çıxışında bildirib ki, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik kursunda Qarabağ məsələsi milli maraqların, suverenliyin və ərazi bütövlüyünün əsas istiqamətlərindən biri kimi xüsusi yer tuturdu. Onun sözlərinə görə, Ulu Öndər Qarabağ probleminə yalnız ərazi məsələsi kimi deyil, Azərbaycan dövlətçiliyinin və milli təhlükəsizliyin əsas elementi kimi yanaşırdı.

Ş.Əbilov qeyd edib ki, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkədə sabitliyin bərpası, dövlət institutlarının möhkəmləndirilməsi və nizami ordu quruculuğu baxımından həlledici dönüş nöqtəsi oldu. "Heydər Əliyevin çoxşaxəli siyasi fəaliyyəti Qarabağ məsələsində Azərbaycanın mövqeyinin beynəlxalq səviyyədə tanınmasına və gələcək qələbənin strateji əsaslarının formalaşmasına mühüm töhfə verdi", - deyə universitetin müəllimi söyləyib.

Çıxış edən Qarabağ Universitetinin Mühəndislik fakültəsinin 2-ci kurs tələbəsi, Qarabağda antiterror əməliyyatının iştirakçısı İlqar İsgəndərli bildirib ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbirdə çıxış etmək onun üçün böyük qürur və məsuliyyətdir. O qeyd edib ki, vaxtilə döyüş yollarının keçdiyi Xankəndi şəhərində bu gün tələbə olaraq təhsil almaq onun üçün sözlə ifadə olunmayacaq bir duyğudur. O, antiterror əməliyyatlarında iştirakını xatırladaraq Azərbaycan Ordusunun Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi tarixi Zəfərin hər bir əsgər üçün iftixar olduğunu bildirib: "Qarabağ Universitetində təhsil alan gənclər Ulu Öndərin müəyyən etdiyi dövlətçilik və azərbaycançılıq ideyaları əsasında Qarabağın gələcək inkişafına mühüm töhfə verəcəklər".

Sonra Qarabağ Universitetində Ümumi Orta Müvəffəqiyyət Göstəricisi ən yüksək olan bir qrup tələbəyə təşəkkürnamələr təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Daha sonra Qarabağ Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında konsert proqramı təqdim olunub.

# "Müasir Azərbaycan dövlətinin memarı"






4 may 2026-cı il tarixində Mingəçevir şəhərində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Yeni Azərbaycan Partiyasının (YAP), Mingəçevir Şəhər İcra Hakimiyyətinin və Mingəçevir Dövlət Universitetinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev irsini öyrənirik" layihəsi çərçivəsində "Müasir Azərbaycan dövlətinin memarı" mövzusunda konfrans keçirilib.

Öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla anılıb.

Dövlət Himninin səsləndirilməsi ilə başlayan konfransda Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ümummilli lider Heydər Əliyevin zəngin və şərəfli ömür yolundan bəhs edən videoçarxın nümayişindən sonra açılış nitqləri dinlənilib.

Tədbiri giriş sözü ilə açan Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Ulu Öndər Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olduğunu qeyd edib. O, Ümummilli liderin müəyyən etdiyi ideoloji xəttin ölkənin parlaq gələcəyinin təminatçısı olduğunu deyib, onun əbədiyaşar ideyalarını Azərbaycanın dünəni, bu günü və gələcəyinə hesablanmış uzunmüddətli strategiya adlandırıb.

İ.İsmayılov, ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş qüdrətli Azərbaycanın Ulu Öndərin arzularının real təcəssümü olduğunu bildirib, həmçinin onun siyasi xəttinin Prezident
İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini və bunun nəticəsində Azərbaycanın tarixi nailiyyətlər qazanaraq qüdrətli dövlətə çevrildiyini qeyd edib. O, layihənin önəmini vurğulayaraq, gənclərin Ulu Öndərin siyasi irsini dərindən öyrənməyinin əhəmiyyətindən bəhs edib.

Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminov bildirib ki, ölkəmizdə ictimai-siyasi və sosial-iqtisadi sferalarda tərəqqi, demokratik dövlət quruculuğu ilə səciyyələnən intibah mərhələsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin elm və təhsilə göstərdiyi diqqət və qayğının bu gün də müsbət nəticələr doğurduğunu vurğulayaraq natiq bu amilin müasir müstəqil Azərbaycanın hərtərəfli inkişafında mühüm önəm kəsb etdiyini qeyd edib.

YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova çıxışında Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətlərinin onun bütün fəaliyyət mərhələlərini əhatə etdiyini qeyd edib. O, Heydər Əliyevin rəhbərliyi dövründə ölkədə xalqın rifahının yüksəldilməsi, hərtərəfli inkişafın təmin olunması və mühüm dövlət quruculuğu işlərinin həyata keçirildiyini vurğulayıb.

Sədr müavini əlavə edib ki, Ümummilli Liderin zəngin siyasi və dövlətçilik irsi qadınların cəmiyyətdə rolunun gücləndirilməsinə mühüm zəmin yaradıb, gender bərabərliyinin təmin olunması və qadınların ictimai-siyasi həyatda iştirakının genişlənməsi istiqamətində əsaslı addımlar atılıb, qadınların dövlət idarəçiliyi, təhsil və digər sahələrdə fəallığı artıb.

S.Qəhrəmanova gənc nəslin milli-mənəvi dəyərlərə sadiqliyinin və vətəndaş kimi formalaşmasının vacibliyini qeyd edərək, gəncləri dövlətçilik ənənələrini dərindən öyrənməyə, fəal vətəndaş mövqeyi nümayiş etdirməyə və ölkənin gələcək inkişafında aktiv iştirak etməyə çağırıb.

YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev çıxışında Heydər Əliyev ideyalarının Partiyanın fəaliyyətində əsas ideoloji istiqamət kimi çıxış etdiyini, sıralarında birləşdirdiyi minlərlə insanın bu siyasi irsin qorunması və təbliği istiqamətində fəal iştirak etdiyini vurğulayıb.

Sonra konfrans çərçivəsində YAP Veteranlar Şurasının üzvü, "Əməkdar müəllim" Fidumə Hüseynovanın moderatorluğu ilə panel sessiya keçirilib, məruzələr dinlənilib.

YAP Veteranlar Şurasının üzvü Əli Həsənov çıxışında Ulu Öndər Heydər Əliyevin dövlət idarəçiliyində davamlı inkişafı təmin edən əsaslar yaratdığını, ölkəmizin bugünkü tərəqqi modelinin onun siyasi xətti əsasında formalaşdığını vurğulayıb.

Ə.Həsənov milli birliyin və ictimai həmrəyliyin möhkəmləndirilməsinin dövlət siyasətinin prioritet istiqamətlərindən olduğunu bildirib, belə tədbirlərin fikir mübadiləsi və təcrübə paylaşımı baxımından əhəmiyyətini qeyd edib.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxışında Ulu Öndərin əsasını qoyduğu hüquqi, dünyəvi və demokratik dövlət quruculuğu ənənələrinin bu gün də proritet istiqamət kimi davam etdirildiyini bildirib.
Qeyd olunub ki, hüquq sistemində aparılan yenilənmələr dövlət idarəçiliyinin daha çevik və səmərəli olmasına xidmət edir. Qanunvericilik sahəsində aparılan islahatlar ardıcıl şəkildə həyata keçirilir və yeni çağırışlara uyğunlaşdırılır.

Milli Məclisin deputatı Aydın Mirzəzadə çıxışında müasir Azərbaycanın ideoloji təməlinin Heydər Əliyevin zəngin siyasi irsinə əsaslandığını qeyd edib. O, bu irsin dövlətçilik prinsiplərinin möhkəmləndirilməsi, milli maraqların qorunması və davamlı inkişaf baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.
A.Mirzəzadə, gənclərin ictimai-siyasi fəallığının, təhsil və maarifləndirilməsinin cəmiyyətin inkişafında mühüm rol oynadığını, onların təşəbbüslərinin dövlət tərəfindən dəstəkləndiyini bildirib.

Mingəçevir Dövlət Universitetinin müəllimi Xədicə Süleymanlı çıxışında Ulu Öndər
Heydər Əliyevin təşəbbüsü ilə təhsil siyasətinin modernləşdirildiyini və bu sahənin inkişafında mühüm addımların atıldığını qeyd edib. Bildirib ki, ali təhsil müəssisələri bilik və bacarıqların formalaşdığı əsas mərkəzlərdir.
X.Süleymanlı tədris prosesinin keyfiyyətinin yüksəldilməsi, tələbələrin elmi fəaliyyətə cəlb olunması və innovativ yanaşmaların tətbiqinin bu sahədə əsas istiqamətlərdən olduğunu deyib.

Konfransda yekun nitq söyləyən Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin Azərbaycan dövlətçiliyinin əsas sütunu olduğunu bildirib, qeyd olunan fikirlərin əhəmiyyətini vurğulayıb, belə təşəbbüslərin maarifləndirici rolunu, davamlı keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

# 14 təklifə qarşı "Azadlıq layihəsi"...

## Yeni "İslamabad prosesi" başlayacaqmı?

**Vaşinqton Hörmüz boğazında "Azadlıq layihəsinə" start verdi**

Yaxın Şərqdə davam edən münaqişədə yaranan status-kvo pozulmur. Belə ki, aprelin 12-də baş tutan nəticəsiz İslamabad görüşünün ardından tərəflər hələ də ortaq mövqeni müəyyənləşdirə bilməyiblər. Qeyd edək ki, ABŞ Hörmüz boğazının təcili və qeyd-şərtsiz açılmasını tələb edir. Bundan başqa Vaşinqtonun ən çox israr etdiyi məsələlərdən biri də İranın nüvə proqramları, uranın zənginləşdirilməsi ilə bağlıdır - ABŞ bu məsələdə güzəştə getmək fikrində deyil. Qarşı tərəf isə müəyyən məsələlər üzərindən, xüsusilə Hörmüz boğazında razılığın əldə olunmasının tərəfdarıdır. Bunun qarşılığında isə uranın zənginləşdirilməsi məsələsi arxa plana keçir - daha doğrusu, müzakirə predmetləri arasında geriyə doğru "sürüşdürülür".

**Yeni təkliflər - Tehran uran məsələsini "aradan çıxarır"...**

Qeyd edək ki, Tehran ABŞ-la mümkün razılaşma üçün Pakistan vasitəsilə Vaşinqtona "yol xəritəsi" göndərib. Tehran yekun atəşkəs və münaqişənin dayandırılması üçün 14 maddədən ibarət təklif paketi təqdim edib. Bildirilir ki, bu sənəd ABŞ tərəfinin daha əvvəl irəli sürdüyü 9 maddəlik təşəbbüsə cavab olaraq hazırlanıb. İran tərəfi ABŞ-dan hərbi əməliyyatların dayandırılmasını, yenidən hücumların edilməyəcəyinə zəmanət verilməsini, dəniz blokadasının qaldırılmasını, İran aktivlərinin azad edilməsini və ABŞ qoşunlarının qonşu ərazilərdən çıxarılmasını tələb edir. Tehran həmçinin dağıntılara görə kompensasiya da istəyir.

Vurğulandığı kimi, sənəd Tehran və Vaşinqton arasında davam edən mesaj mübadiləsinin bir hissəsi olaraq Pakistan tərəfinə təqdim olunub Tasnim məlumatına görə, İran ABŞ tərəfindən təklif edilən iki aylıq atəşkəs əvəzinə, əsas məsələləri 30 gün ərzində həll etməyi təklif edib - onların mövqeyinə görə, atəşkəsi uzatmaqdansa müharibə sona çatdırılsın. Bundan başqa, paketdə Hörmüz boğazındakı vəziyyətin həlli üçün mexanizm təklifləri də qeyd olunur.

"Fars" agentliyi isə bildirib ki, sənəd İran hökumət qurumları tərəfindən daxili təsdiq prosedurları başa çatdıqdan sonra təqdim edilib.

**ABŞ təklifləri gözdən keçirir - təsdiqlənmə ehtimalı aşağıdır...**

ABŞ-ın mövqeyinin dəyişəcəyi isə az ehtimaldır - xüsusilə, prezident Donald Trampın bu təklifləri qəbul etməsi mümkün görünmür. Bununla belə Ağ Ev İranın təklifini nəzərdən keçirəcək. ABŞ prezidenti Donald Tramp "Truth Social" sosial şəbəkəsində yazıb ki, "Tezliklə İranın bizə göndərdiyi planı nəzərdən keçirəcəyəm, amma onun qəbul ediləcəyini təsəvvür edə bilmirəm, çünki onlar son 47 ildə bəşəriyyətə və dünyaya etdiklərinə görə hələ kifayət qədər yüksək qarşılıq ödəməyiblər".



Qeyd edək ki, "Wall Street Journal" mənbələrə istinadən İranın yeni görüş təklifi ilə çıxış etdiyini də açıqlayıb - Tehran vasitəçilərə bildirib ki, Vaşinqton yeni təkliflə maraqlanarsa, yaxın günlərdə Pakistanda danışıqlara hazırdır. Qeyd edək ki, "Axios" əvvəllər İranın təklifinin atəşkəsin uzadılmasını və ya müharibəyə son qoymaq üçün hərtərəfli razılaşmanı, eləcə də Hörmüz boğazının açılmasını əhatə etdiyini bildirmişdi - lakin bunun qarşılığında nüvə danışıqlarının təxirə salınması təklif olunur.

**Qısa, amma güclü zərbələr...**

"Axios" həmçinin üç mənbəyə istinadən xəbər verir ki, ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) Vaşinqton və Tehran arasındakı danışıqlardakı dalan vəziyyətini aradan qaldırmaq üçün İrana qarşı "qısa, lakin güclü" zərbələr dalğası planı hazırlayıb. Bir neçə gün öncə ABŞ prezidenti Donald Tramp nəşrə bildirib ki, Tehran Vaşinqtonun nüvə silahlarının inkişafını dayandırmaq tələblərini yerinə yetirənə qədər Hörmüz boğazındakı İran limanlarının blokadasını davam etdirəcək. Bundan əlavə, ABŞ Silahlı Qüvvələri İrana qarşı zərbələr planı hazırlayıb ki, bu da İranın infrastrukturunu hədəfə alır. Məqsəd Vaşinqtonun təzyiqi altında Tehranın danışıqlar masasına "daha çevik" mövqe ilə qaytarılmasıdır. "Axios" mənbələri bildirib ki, Tramp hələ hücum əmri verməyib.

Nəşr yazır ki, prezident Tramp dəniz blokadasının bombardmandan daha təsirli olduğuna inanır. Mənbələr bildirib ki, İranın əməkdaşlıqdan imtina edəcəyi təqdirdə, hərbi əməliyyat ideyası da istisna olunmur.

**"Azadlıq layihəsi" - köməksiz gəmilər çıxarılır...**

Vurğulandığı kimi, ABŞ administrasiyası indiki mərhələdə Hörmüz boğazında blokadını gücləndirməyi hədəfləyir. Prezident Donald Trampın yeni "Azadlıq layihəsi" də bunu təsdiqləyir. Qeyd edək ki, prezident Tramp Hörmüz boğazında yaranmış vəziyyətlə bağlı geniş açıqlama verib. Trampın sözlərinə görə, dünyanın müxtəlif ölkələri ABŞ-dan bu bölgədə qalan gəmilərin təhlükəsiz çıxarılması üçün kömək istəyib. Trampın sözlərinə görə, bu gəmilər Hörmüz boğazında ilişib qalıb və baş verən münaqişə ilə heç bir əlaqəsi yoxdur: "Onlar sadəcə neytral və günahsız müşahidəçilərdir".

ABŞ prezidenti qeyd edib ki, Vaşinqton bu ölkələrə gəmilərin təhlükəsiz şəkildə dar su yollarından çıxarılmasına yardım edəcəyini bildirib ki, onlar fəaliyyətlərini normal davam etdirə bilsinlər. O vurğulayıb ki, bu proses "Azadlıq layihəsi" adlandırılıb. Tramp əlavə edib ki, nümayəndələrinə həm gəmilərin, həm də ekipajların təhlükəsiz çıxarılması üçün maksimum səylərin göstərilməsi tapşırılıb:

"Bu gəmilərin əksəriyyəti baş verənlərlə heç bir əlaqəsi olmayan ölkələrə məxsusdur".

ABŞ Prezidenti bildirib ki, İranla aparılan danışıqlar müsbət məcradadır və bu proses bütün tərəflər üçün yaxşı nəticələr verə bilər. Onun sözlərinə görə, gəmilərin hərəkəti yalnız günahsız insanlar, şirkətlər və ölkələrin azad edilməsi məqsədi daşıyır. Tramp həmçinin qeyd edib ki, bir çox gəmidə ərzaq və ekipajın normal şəraitdə qalması üçün zəruri ehtiyatlar tükənmək üzrədir: "Onlar mövcud şəraitin qurbanlarıdır". ABŞ lideri xəbərdarlıq edib ki, əgər bu humanitar prosesə hər hansı müdaxilə olarsa, buna "güclü şəkildə cavab veriləcək".

**15 min əsgər, 100-dən çox daşıyıcı təyyarə, çoxməqsədli pilotsuz platformalar**

Artıq "Azadlıq layihəsi" icra olunmağa başlayır. ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) Yaxın Şərqdəki ofisinin yaydığı məlumata görə, Hörmüz boğazından keçən ticarət gəmilərinin çıxarılmasını təmin etmək üçün idarə olunan raket esminetslərindən, 100-dən çox quru və gəmi əsaslı təyyarələrdən və dronlardan istifadə edilir. CENTCOM komandanı admiral Bred Kuper bildirib ki, "bu müdafiə missiyasına dəstəyimiz regional təhlükəsizlik və qlobal iqtisadiyyat üçün vacibdir, eyni zamanda dəniz blokadasını da dəstəkləyirik".

Komandanlıq vurğulayıb ki, ABŞ prezidentinin təşəbbüsü ilə həyata keçirilən missiya dünya neftinin dörddə birinin, eləcə də xeyli miqdarda yanacaq və gübrənin keçdiyi Hörmüz boğazından maneəsiz keçid axtaran ticarət gəmilərini dəstəkləyəcək. CENTCOM-un məlumatına görə, "Azadlıq layihəsi" idarə olunan raket esminetsləri, 100-dən çox daşıyıcı təyyarə, çoxməqsədli pilotsuz platformalar və 15.000 hərbi qulluqçu tərəfindən dəstəklənəcək.

"Axios" isə yazır ki, Hörmüz boğazından keçən ticarət gəmilərinə rəhbərlik etmək üçün ABŞ Hərbi Dəniz Qüvvələrinin yeni əməliyyatı olan "Azadlıq layihəsi" dəniz karvanlarının təşkili və müşayiətini deyil, təhlükəsiz və minasız gəmiçilik zolaqları haqqında məlumatların verilməsini nəzərdə tutur. Nəşr iki ABŞ rəsmisinə istinadən bildirib ki, Hörmüz boğazı ilə bağlı yeni təşəbbüs mütləq ABŞ Hərbi Dəniz Qüvvələrinin ticarət gəmiləri üçün müşayiətçilərini əhatə etməyəcək.

Dünən yayılan məlumata görə isə, ABŞ-ın Northrop Grumman MQ-4C Triton kəşfiyyat pilotsuz təyyarəsi Yaxın Şərqdəki hərbi bazadan qalxaraq Fars körfəzi və Hörmüz boğazına doğru hərəkət edir. Bu barədə Yaxın Şərq hava nəqliyyatı idarəsindəki mənbə TASS-a bildirib. "ABŞ-a məxsus Northrop Grumman MQ-4C Triton pilotsuz təyyarəsi regionun hərbi bazalarından birindən qalxaraq Fars körfəzi və Hörmüz boğazına doğru hərəkət edir", - agentliyin mənbəyi bildirib və PUA-nın hərəkətlərinin 14.000 metrdən çox hündürlükdə aşkarlandığını qeyd edib. Bundan əlavə, mənbəyə görə, təyyarə müəyyən edilmiş mülki aviasiya uçuş dəhlizlərindən kənarda uçur.

Qeyd edək ki, təxminən bir ay əvvəl oxşar dron uçuş zamanı qəza siqnalı göndərib və sonra Fars körfəzi üzərində yoxa çıxıb. Northrop Grumman MQ-4C Triton dronları dənizdə və quruda real vaxt rejimində kəşfiyyat məlumatları və müşahidə təmin etmək qabiliyyətinə malikdir.

**P.İSMAYILOV**

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Qanla yazılan azadlıq misraları...

## Əhməd Cavadın ölməyən səsi!



Onun qələmindən çıxan hər bir misra yalnız bədii dəyər daşımırdı, eyni zamanda xalqın azadlıq ideallarını alovlandıran güclü bir çağırış kimi səslənirdi. Bu baxımdan o, təkcə şair deyil, həm də milli oyanışın simvolu idi. Əhməd Cavad Azərbaycan ədəbiyyatının və milli ruhunun formalaşmasında silinməz iz qoymuş, sözün həqiqi mənasında xalqın hisslərini, arzularını və mübarizə ruhunu poetik dillə ifadə edən nadir şəxsiyyətlərdən idi.

Yaradıcılığına nəzər saldıqda aydın şəkildə görünür ki, o, dövrünün mürəkkəb ictimai-siyasi hadisələrinə həssas yanaşaraq xalqın taleyinə biganə qalmayıb. Əksinə, öz əsərlərində vətən sevgisini, istiqlal ideyasını və milli kimlik duyğusunu ön plana çəkərək Azərbaycan xalqının mənəvi dirənişinə güc verib. Həmin xüsusiyyətlər onun əsərlərini bu gün də aktual və təsirli edir.

Düçar olduğu məşəqqətlər, təqiblər, repressiya qarşısında əyilməzliyi böyük şairi mübarizliyin simvoluna çevirdi. O, 1892-ci il mayın 5-də Gəncə qəzasının Şəmkir dairəsi, Seyfəli kəndinin Mehrəli tirəsində ruhani ailəsində dünyaya gəlib. İlk təhsilini molla məktəbində alıb, üç il orada oxuyub. Sonrakı təhsilini Gəncədə Müsəlman Ruhani Seminariyasında alıb (1906-1912-ci illər) və oranı müvəffəqiyyətlə bitirib. 1913-cü ildə Zaqafqaziya şeyxülislamı Pişnamazzadənin imzası ilə ona müəllimlik şəhadətnaməsi verilib. Həmin ildə Şəmkir, Gədəbəy, Zaqatala və Gəncədə fasilələrlə dərs deyib. Birinci Dünya Müharibəsi başlayanda müharibəyə gedib, dörd il cəbhədə müxbir, xeyriyyə cəmiyyətinin üzvü, katibi, bəzən də sədr müavini kimi fəaliyyət göstərib. O, Şimali Qafqazda, Dağıstanda, Batumda, Qarsda, Ərdəhanda, Gürcüstan və Türkiyədə olub. Ən çox türk xalqları yaşayan bölgələrə gedərək onlara maddi və mənəvi yardım göstərib.

**Həyatının 29 ilini müəllimliyə həsr edib**

Müharibədən sonra müəllim işləməklə yanaşı, həm də yaradıcılıqla məşğul olur - Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasında yaxından iştirak edir. 1920-ci ildə isə Quba qəzasının Xuluq kəndinə müəllim təyin olunur. 1922-ci ilin yayına kimi burada türk və rus dillərindən dərs deyir. O, 1922-ci ildə ali məktəbə daxil olmaq məqsədi ilə Bakıya gəlir. Azərbaycan Ali Pedaqoji İnstitutuna daxil olur, 1926-cı ildə oranı bitirir. Nərimanov adına Texnikumda, Pambıqçılıq İnstitutunda (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışır. Göründüyü kimi, Ə.Cavad həyatının 29 ilini müəllimlik kimi müqəddəs peşəyə bağlamışdı.

**Türk dünyasının iki Əhməd Cavadı**

AXC dövründə "Azərbaycan dilinin sərfi və nəhvi" adlı ilk dərsliyin müəllifi olub. O, rus dili üzrə professor rütbəsi alan ilk azərbaycanlı alim idi, səkkiz-on dildə sərbəst oxumaq, danışmaq və yazmağı bacarırdı. Gəncə mədrəsəsində H.Cavid kimi filosof-şairdən, Abdulla Sur kimi tənqidçi-ədəbiyyatşünasdan dərs alan Cavad öz təxəllüsünü türkiyəli şair Əhməd Cavadın adından götürmüşdü. Beləliklə, eyni tarixi dövrdə türk dünyasında iki Əhməd Cavad yazıb-yaradırdı.

**Həbsinə səbəb olan şeir**

1920-ci ilin aprel hadisələrindən sonra Ə.Cavadın hüquqları daim pozulur, orijinal yaradıcılığının inkişafına imkan verilmir. 1923-cü ildə Mirzəbala Məmmədzadənin Türkiyəyə qaçırılmasında Cavadı günahlandırıb həbs edirlər. Xuluq kəndində işləyərkən dostluq etdiyi müəllim yoldaşı H.Musayev M.C.Bağırovun yanına gəlir və şairin azad olunmasını xahiş edir. Bağırov onu eşidir.

Ə.Cavad ikinci dəfə haqqında danışacağımız "Göygöl" şeirinə görə həbs edilir. Bu şeiri oxuyan o zamankı rəhbərlərdən S.Ağamalıoğlu demişdi: "Kim deyər ki, Azərbaycanın Puşkini yoxdur? Cavad Azərbaycan ədəbiyyatının Puşkinidir. "Göygöl" doğrudan-doğruya Azərbaycan ədəbiyyatının incisidir". Lakin şairin bədxahları bildirir ki, şeir antisovet ruhludur. Dərhal Ə.Cavadın həbs olunması əmri verilir.

Beş-altı ay çəkən sorğu-sualdan sonra "Göygöl"ə heç bir siyasi rəng verə bilmirlər və şairi həbsdən buraxırlar. Ə.Cavad 1920-1937-ci illərdə dəfələrlə həbs edilmiş, təqiblərə məruz qalmışdı. Nəhayət, 1937-ci il martın 21-də şairi Azərbaycan Yazıçılar İttifaqının üzvlüyündən azad edirlər. Həmin il iyun ayının 4-də onu H.Cavid, M.Müşfiq və V.Xuluflu ilə eyni vaxtda həbsə alırlar.

**15 dəqiqəyə qəbul edilmiş qərar...**

1937-ci il oktyabrın 22-dən 23-nə keçən gecə 15 dəqiqəlik məhkəmənin qərarı ilə ona güllələnmə kəsilir və tez bir zamanda icra olunur. Şairin sağ qalan ailə üzvlərinin taleyi isə daha ağır və faciəli olur. Şükriyyə xanım həyat yoldaşının ölümündən sonra "vətən xaininin arvadı" kimi uşaqları ilə birlikdə həbs edilir. Yeddi ildən sonra sürgündən azad edilsə də, ona Bakıda yaşamaq qadağan olunur. Yalnız 1955-ci ilin dekabrında ailə bəraət alır.

Tarix insan səhvlərini düzəldir. 1958-ci ildə Əhməd Cavadın "Şeirlər", 1961-ci ildə "Sən ağlama, mən ağlaram" kitabı çap olunur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əhməd Cavad Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan, bu yolda "xalq düşməni" damğası ilə güllələnən Əhməd Cavad, zaman gəldi ki, xalqının qəhrəmanı kimi yenidən tarixin səhnəsində öz yerini, layiq olduğu zirvəni tutdu. Azərbaycan var olduqca bu yer onun olacaq. Zaman göstərdi ki, güllə sözə qalib gələ bilmir. O, fiziki olaraq öldürüldü, amma mənəvi olaraq yaşadı. Bu gün Ə.Cavad təkcə repressiya qurbanı kimi yox, azad sözün simvolu kimi xatırlanır. Onun taleyi bizə bir həqiqəti xatırladır: zalım rejimlər müvəqqətidir, söz isə qalıcı..

*Yeganə BAYRAMOVA*

# İlmə-ilmə yazılan mədəniyyət

## Xalçaçılıq naxışların dili ilə danışan keçmişimizdir...

Qədim tarixlərdən süzülüb gələn xalçaçılıq sənəti xalqımızın ruhunu, dünyagörüşünü və estetik zövqünü özündə əks etdirən ən zəngin milli dəyərlərdən biridir. Xalçaçılıq bu gün də öz parlaqlığını və cazibəsini qoruyub saxlayan nadir sənət incilərindən sayılır. Hər bir ilməsi sanki bir nağıl danışır, hər bir naxışı isə keçmişin sirli dünyasına açılan pəncərə rolunu oynayır. Bu sənət növü yalnız məişət əşyası yaratmaqdan ibarət olmayıb. Eyni zamanda xalqımızın tarixini, adət-ənənələrini, sevincini və kədərini, təbiətə olan bağlılığını və həyat fəlsəfəsini rənglərin harmoniyası və naxışların dili ilə ifadə edən canlı bir mədəniyyət abidəsi kimi formalaşıb. Bu da xalçaları sadəcə bir toxuculuq məhsulu deyil, bütöv bir mədəniyyət xəzinəsinə çevirir.

Artıq 10 ildir ki, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradıldığı gün "Xalçaçı Günü" kimi qeyd olunur. 5 may tarixinin Xalçaçı günü kimi qeyd olunması Prezident İlham Əliyevin 25 noyabr 2016-cı il tarixli sərəncamı ilə müəyyənləşib.

Qədim dövrlərdən başlayaraq müxtəlif bölgələrimizdə - Qarabağ, Quba, Şirvan, Gəncə və Təbriz xalçaçılıq məktəblərində formalaşan üslub fərqlilikləri yalnız texniki xüsusiyyətlərlə məhdudlaşmırdı. Eyni zamanda bu sənət hər bölgənin təbiətini, insanlarının düşüncə tərzini və gündəlik həyatını əks etdirən rəng palitrası və ornament sistemi ilə seçilərək bir növ xalqın yaddaş kitabına çevrilib.

Xalçaların üzərindəki mürəkkəb həndəsi fiqurlar və simvolik heyvan təsvirləri sadəcə bədii elementlər deyil. Onlar qədim inancları, mifoloji təsəvvürləri və ailə-məişət ənənələrini özündə birləşdirərək nəsildən-nəslə ötürülən gizli mesajlar kimi xalça sənətinin dərin mənəvi qatını formalaşdırır. Ənənəvi olaraq qadınların zəhməti və səbrinin nəticəsi kimi ərsəyə gələn xalçalar həm də ailənin sosial statusunu göstərən, cehiz ənənəsinin ayrılmaz hissəsi olan və xüsusi mərasimlərdə mühüm rol oynayan dəyərli sənət nümunələri kimi qəbul edilərək cəmiyyətin həyatında mühüm yer tutub.

Xalçaçılıq sənətinin inkişafında təbii boyaların rolu xüsusilə diqqətəlayiqdir. Çünki zəfəran, qoz qabığı, nar qabığı və müxtəlif bitkilərdən əldə edilən rənglər xalçalara həm davamlılıq, həm də təbiətin özündən gələn canlı və harmonik



çalarlar bəxş edərək onları zaman keçdikcə daha da qiymətli edir.

Bu gün də ölkəmizdə xalçaçılığın inkişafına böyük diqqət və qayğı göstərilir. Ölkə rəhbərinin müvafiq sərəncamları ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması, "Xalçaçı Günü" peşə bayramının təsis edilməsi, respublikamızın şəhər və rayonlarında xalça istehsalı emalatxanalarının tikilib istifadəyə verilməsi bu sənəti yaşadanlara göstərilən böyük dövlət qayğısının parlaq təzahürüdür.

Milli mədəniyyətimizin inkişafında böyük rolu olan Birinci xanım Mehriban Əliyeva da xalçaçılığın yaşadılmasına öz dəyərli töhfələrini verir. Xalçaçıların problemlərinin aradan qaldırılmasında, onların fəaliyyət imkanlarının genişləndirilməsində, nailiyyətlərinin beynəlxalq miqyasda təbliğində Mehriban xanımın xidmətləri misilsizdir.

Azərbaycanda xalçaçılıq sənətinin ölkə iqtisadiyyatındakı rolunu hər zaman yüksək olub. Prezidentin diqqət və qayğısı ilə 2016-2020-ci illərdə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin 21 filialı yaradılaraq fəaliyyətə başlayıb. Səhmdar Cəmiyyətinin ilk filialı 2016-cı ilin noyabr ayında Füzuli rayonunun Horadiz qəsəbəsində açılıb. 2017-ci ildə Ağdam, Şəmkir, Tovuz, Ağstafa, Qazax, İsmayıllı, Qəbələ, Quba və Xaçmaz rayonlarında xalça istehsalı emalatxanaları yaradılıb. 2018-ci ilin sonunda Səhmdar Cəmiyyətin daha 10 xalça emalatxanasının-Naxçıvan, Nardaran, Abşeron, Kürdəmir, Goranboy, Tərtər, Şabran, Qobustan, Cəbrayıl, Lənkəran filiallarının tikintisi başa çatdırılaraq istehsala başlanılıb. 2020-ci ildə isə İsmayıllı şəhərində ikinci xalça emalatxanası öz qapılarını toxucuların üzünə açıb. Bu emalatxanaların hər birində 150 nəfər toxucunun, 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması üçün yüksək iş şəraiti yaradılıb, onların rahatlığının təmin olunması üçün nəqliyyat vasitəsi ayrılıb.

Bu gün müasir texnologiyaların və sənayeləşmənin təsiri altında ənənəvi xalçaçılıq müəyyən çətinliklərlə üzləşsə də, ustad sənətkarların səyi, dövlət və mədəniyyət qurumlarının dəstəyi sayəsində bu qədim sənət yenidən dirçələrək beynəlxalq sərgilərdə, muzeylərdə və kolleksiyalarda layiq olduğu yeri tutmaqda davam edir. Xalçaçılıq yalnız keçmişin yadigarı deyil, həm də bu günümüzün və gələcəyimizin bir parçası olaraq, Azərbaycan xalqının milli kimliyini, estetik düşüncəsini və yaradıcı ruhunu bütün dünyaya tanıtmağa davam edən əvəzsiz mədəni sərvət kimi yaşayır.

*Yeganə BAYRAMOVA*

# Onların da hüquqları var...

## Əlillik ayrı-seçkiliyə səbəb deyil

Bəzilərinə ağır və çətin görünən həyat başqaları üçün adi və dəyişməz reallıqdır. Pilləkənləri çıxmaq bizim üçün sadəcə bir neçə saniyə çəksə də, bu, kimisi üçün keçilməsi mümkünsüz bir maneədir. Heç kəs əlil olmağı könüllü seçmir. Bu vəziyyət insanın iradəsindən asılı olmayaraq, qəfil və gözlənilməz şəkildə baş verə bilər. Onu əvvəlcədən tam şəkildə sığortalamaq da mümkün deyil. Yaşından, dinindən, dilindən və ya irqindən asılı olmayaraq hər kəs belə bir vəziyyətlə üzləşə bilər. Yəni, hər birimiz istənilən anda əlil olma riski ilə qarşı-qarşıyayıq.

Mayın 5-ni dünya ictimaiyyəti Beynəlxalq Əlillərin Hüquqlarının Müdafiəsi Günü kimi qeyd edir. 1992-ci il mayın 5-də Avropanın 17 ölkəsində əlilliyi olan insanlar eyni vaxtda əlilliyi olan insanlar üçün bərabər hüquqlar uğrunda, fiziki, əqli və hissiyyat çatışmazlığı olan insanlara qarşı ayrı-seçkiliyə qarşı mübarizə günü keçirdilər. Həmin vaxtdan belə tədbirlər ənənəvi hal alıb və mayın 5-də də keçirilir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə, dünyada 1 milyarddan çox insan əlilliyə malikdir ki, bu da dünya əhalisinin təxminən 15%-nə bərabərdir. Bunlardan 100 milyondan çoxu əlilliyi olan uşaqlardır.

Bu əlamətdar gün bizə bir daha dərk etdirir ki, əlilliyi olan şəxslərin qarşılaşdığı maneələr onların fərdi xüsusiyyətlərindən deyil, əksər hallarda cəmiyyətin yaratdığı fiziki, sosial və psixoloji baryerlərdən qaynaqlanır. Bu baryerləri aradan qaldırmaq üçün hər birimizin üzərinə mühüm vəzifələr düşür. Fərqlilikləri qəbul etməyi, müxtəlifliyi zənginlik kimi görməyi və hər bir insanın öz bacarıqları ilə cəmiyyətə töhfə verə biləcəyinə inanmalıyıq. Çünki inklüzivlik yalnız bir anlayış deyil, həm də davamlı inkişafın əsas sütunlarından biridir.



2006-cı ildə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" BMT-nin Konvensiyasına qoşulan Azərbaycanda əlil hüquqlarının qorunması, onların sağlamlıqlarının bərpası, sosial rifahının yaxşılaşdırılması, mənzillə təminatı, peşə ixtisasına yiyələnməsi, bir sözlə, tamhüquqlu üzv kimi cəmiyyətə inteqrasiya olunması üçün tədbirlər görülür. Həmin sahələrin hər biri üzrə lazımlı addımlar atılır.

Prezident İlham Əliyevin uğurlu sosial siyasəti Azərbaycanda əlilliyi olan şəxslərin də sosial təminatı, reabilitasiyası və cəmiyyətə inteqrasiyasının dəstəklənməsi tədbirlərinin ildən-ilə genişlənməsinə imkan verib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyi olan şəxslərə əlilliyə görə pensiya və ya aylıq sosial müavinət, eləcə də 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslərə aylıq müavinət ödənilir. Müharibə, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və digər xüsusi səbəblərlə əlaqədar əlilliyi olan şəxslər, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslər pensiya və ya müavinətlə yanaşı, Prezidentin aylıq təqaüdü ilə də təmin edilirlər. Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edənlərə də Prezidentin aylıq təqaüdü ödənilir.

Bu sosial ödənişlərin ardıcıl olaraq artırılması təmin olunur. Dövlət başçısının imzaladığı fərman və sərəncamlar nəticəsində xüsusilə son 7-8 ildə bu sahədə ciddi irəliləyişlər əldə olunub.

Unutmayaq ki, həqiqətən güclü və inkişaf etmiş cəmiyyət o cəmiyyətdir ki, orada heç kim kənarda qalmır, hər kəs eşidilir, hər kəsə dəyər verilir və hər bir insan öz potensialını sərbəst şəkildə reallaşdırmaq imkanına malik olur...

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5231
Sifariş: 600
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova